# XƏZƏR XƏBƏR

## KHAZAR REVIEW

№ 443 Oktyabr 2024



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

# XƏZƏR UNİVERSİTETİNDƏ COP29 ÖNCƏSİ KONFRANS



*Hamlet İsaxanlı*



# PRE-COP29 CONFERENCE AT KHAZAR UNIVERSITY

Böyük Britaniyanən Azərbaycandakı səfirliyinin dəstəyi və Redinq (Reading) Universitetinin tərəfdaşlığı ilə oktyabrın 22-də Mərmər zalda "Neftlə vidalaşırıq? COP29 öncəsi dialoq və perspektivlər" mövzusunda konfrans keçirildi.

Konfransda giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, Böyük Britaniyanın Azərbaycanda fövqəladə və səlahiyyətli

With the support of the British Embassy in Azerbaijan and in partnership with the University of Reading, a conference titled "A Farewell to Fossil Fuels? Perspectives and Dialogues Pre-Cop29" was held in the Marble Hall on October 22, 2024.

The conference opened with speeches from Prof. Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Fergus Auld, British





*İnqilab Əhmədov*






*Fergus Auld*

səfiri Ferqus Auld (Fergus Auld) və Redinq Universitetinin professoru Yelena Kalyuznova (Yelena Kalyuzhnova), İqtisadiyyat və Biznes yüksək təhsil fakültəsinin dekanı Prof. İnqilab Əhmədov və digərləri çıxış etdilər.

Konfransda, həmçinin, iqlim dəyişikliyi və enerji keçidi sahəsində tanınmış beynəlxalq və yerli ekspertlərin məruzələri dinlənildi, müzakirələr oldu. Günün ikinci hissəsində Böyük Britaniyanın Redinq şəhərində fəaliyyət göstərən iqlim dəyişikliyi üzrə gənclər şurasının azərbaycanlı həmkarları ilə onlayn müzakirəsi baş tutdu və birgə şəbəkə təşkili qərarlaşdırıldı. Gənclər şəbəkəsi adından COP29 Sədrliyinə gənclərin iqlim dəyişikliyindən gözləntiləri və verə biləcəyi töhfə haqqında məktub ünvanlandı.




*Yelena Kalyuzhnova*



*Beynəlxalq Enerji Agentliyinin Azərbaycan üzrə eksperti Pərviz Qəribzadə*

Ambassador to Azerbaijan, and Professor Yelena Kalyuzhmova from the University of Reading. Dean of the Graduate School of Economics and Business, Prof. Ingilab Ahmedov and others presented a report.

The conference also featured presentations and discussions by renowned international and local experts in the field of climate change and energy transition. In the second half of the day, an online discussion took place between the youth climate council from Reading, UK, and their Azerbaijani counterparts, resulting in the decision to establish a joint network. On behalf of the youth network, a letter was addressed to the COP29 Presidency regarding youth expectations from climate change and their potential contributions.

# İÇİNDƏKİLƏR

**"Füzuli poeziyası irfan və ümumbəşər mənəvi dəyərlər işığında" mövzusunda beynəlxalq elmi simpozium ...... 6**
**Xəzər Universitetinin Riyaziyyat və Onun Tətbiqləri Elmi-Tədqiqat Mərkəzinin üzvü Namiq Quliyev dünyanın ən nüfuzlu tədqiqatçıları siyahısında ...... 9**
**"COP29 ərəfəsi: Təhsil, İctimai Səhiyyə və Davamlı İnkişafın Əlaqələndirilməsi" mövzusunda beynəlxalq simpozium ...... 10**
**"Dünyanı Dəyişən Qadınlar Mükafatları" qlobal proqramında üç medal qazanan Xəzər Universiteti məzunu ...... 13**
**Xəzər Universitetinin iqtisadiyyat və menecment fakültəsinə yeni dekan təyin olunub ...... 14**
**İngilis dili və ədəbiyyatı departamenti və Tərcümə Mərkəzi Bakı Tərcümə Forumunda ...... 17**
**Fizika və elektronika departamentinin əməkdaşı "Coders Azerbaijan" Tədris Mərkəzinin tədbirində ...... 19**
**Beynəlxalq ISBN Agentliyinin ümumi illik görüşü ...... 20**
**Təhsil Tələbə Krediti Fondunun əməkdaşı "Xəzər"də ...... 22**
**Riyaziyyat departamentinin professorlarının birgə məqaləsi "Rendiconti del Circolo Matematico di Palermo Series 2" jurnalında ...... 25**
**"Fulbrayt" Tədqiqat və "İngilis dili eksperti" proqramlarının təqaüdçüləri universitet heyətinə təqdim olundu ...... 26**
**Poltava Dövlət Aqrar Universitetinin nümayəndə heyəti "Xəzər"də ...... 30**
**Məzunlarla görüş: "Məndədir, səndədir, müəllim ömrü" ...... 32**
**AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ...... 36**
**Tələbə guşəsi ...... 38**
**Universitetə yeni qəbul olunmuş əcnəbi tələbələr üçün məlumatlandırma günü ...... 40**
**ARDNF-nin əməkdaşlarının seminarı ...... 46**
**Elmi Şuranın növbəti iclası ...... 48**
**AIESEC-in məlumatlandırıcı tədbiri ...... 54**
**Siyasi elmlər və fəlsəfə departamentinin müdiri 4-cü Manas forumunda ...... 55**
**Türkiyənin İnsan və Mədəniyyət Hərəkatının nümayəndə heyəti "Xəzər"də ...... 63**
**Xəzər Universiteti "Tibb Təhsili və Tədqiqatlarının Beynəlmiləlləşdirilməsi" Beynəlxalq Forumunda ...... 66**
**Naxçıvan Dövlət Universiteti xəbərləri ...... 68**
**Xəzər Universitetinin tərəfdaşlığı ilə beynəlxalq konfrans: "Zamanını aşan miras - ipək yolu" ...... 70**
**Bədr Universitetinin nümayəndə heyəti "Xəzər"də ...... 72**
**Aksaray Universitetinin müəllimi "Xəzər"də ...... 75**

**Jurnalın üz qabığında:** *Hamlet İsaxanlı, Raziyə İsayeva*

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan

**İngilis dilinə tərcümə və redaktə:**
Elmira Cahangirli

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS


International Scientific Symposium on "Fuzuli's Poetry in the Light of Wisdom and Universal Moral Values" ....6
Namig Guliyev, Member of the "Scientific Research Center for Mathematics and Its Applications" at Khazar University, is listed among the World's Most Influential Researchers ....9
"On the Eve of COP29: Coordination of Education, Public Health and Sustainable Development" International Symposium....10
Khazar University Alumni Wins Three Medal at the "Women Changing the World Awards" ....13
New Dean Appointed to the School of Economics and Management at Khazar University ....14
Department of English Language and Literature and Center of Translation and Interpretation at the Baku Translation Forum ....17
Physics and Electronics Department Staff Member at "Coders Azerbaijan" Training Center Event....19
Annual General Meeting of the International ISBN Agency ....20
Education Student Credit Fund Representative at "Khazar"....22
Joint Article by Mathematics Department Professors Published in "Rendiconti del Circolo Matematico di Palermo Series 2" Journal....25
Fulbright Research and English Language Fellow Program Scholars Introduced to University Staff ....26
Delegation from Poltava State Agrarian University at Khazar....30
Meeting with Alumni: "The Life of a Teacher is in You and Me" ....32
News of the Institute of ANAS Named after Nizami (*in Azerbaijani*) ....36
Student corner ....38
Orientation Day for Newly Admitted International Students ....40
Seminar by Sofaz Employees ....46
Next Meeting of the Scientific Council ....48
AIESEC Information Session ....54
Head of Political Sciences and Philosophy Department at 4th Manas Forum....55
Delegation from Turkey's Human and Culture Movement at "Khazar" ....63
Khazar University Participated in the "Internationalization of Medical Education and Research" International Forum....66
Nakhchivan State University News (*in Azerbaijani*) ....68
International Conference in Partnership with Khazar University: "Legacy Beyond Time - The Silk Road"....70
Delegation from Badr University Visits Khazar....72
Aksaray University Instructor at "Khazar" ....75


On the cover page of the journal: *Hamlet Isakhanli, Raziya Isayeva*


It has been published since January 1995

**Founder**: Khazar University

**Editor-in-chief**: Hamlet Isakhanli

**Associate editor**: Alirza Balayev

**Photo**: Multimedia Centre

Khazar University

Adress: 41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan

**Translation and editing into English:**
Elmira Jahangirli
**Computer graphics:**
Gunel Akbarova

# "FÜZULİ POEZİYASI İRFAN VƏ ÜMUMBƏŞƏR MƏNƏVİ DƏYƏRLƏR İŞIĞINDA" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ SİMPOZİUM

# INTERNATIONAL SCIENTIFIC SYMPOSIUM ON "FUZULI'S POETRY IN THE LIGHT OF WISDOM AND UNIVERSAL MORAL VALUES"





*Hamlet İsaxanlı*

Dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyi münasibətilə Xəzər Universitetində "Füzuli poeziyası irfan və ümumbəşəri mənəvi dəyərlər işığında" mövzusunda beynəlxalq elmi simpozium keçirildi. Tədbir oktyabrın 14-15-də universitetin Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutu və Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı, Zakher Travel turizm şirkəti və Gəncliyə Yardım Fondunun maddi dəstəyi ilə baş tutdu.

Simpoziumun məqsədi dünya mədəni irsinə dəyərli töhfələr vermiş türkdilli ədəbiyyatın ən qüdrətli söz ustadlarından biri olan Füzulinin ədəbi-fəlsəfi məktəbinin hərtərəfli müzakirəsi idi.

Füzuli irsinin öyrənilməsi, beynəlxalq ədəbi ictimaiyyətə daha yaxından tanıdılması bu gün mənəvi dəyərlərin arxa plana keçdiyi, dünyada müharibələrin, terrorun, ictimai duyarsızlığın və laqeydliyin hökm sürdüyü bir zamanda çox gərəkli və önəmlidir.

An international scientific symposium on "Fuzuli's Poetry in the Light of Wisdom and Universal Moral Values" was held at Khazar University to celebrate the 530th anniversary of the birth of the great Azerbaijani poet and thinker Mohammad Fuzuli. The event took place on October 14-15, organized by the university's Mevlana Institute of Literary and Philosophical Studies and the Department of Languages and Literatures, with financial support from Zakher Travel tourism company and the Youth Support Fund.

The symposium aimed to comprehensively discuss the literary and philosophical school of Fuzuli, one of the most powerful masters of Turkic literature who made valuable contributions to world cultural heritage.

The study and international promotion of Fuzuli's heritage is particularly essential and important today, at a time when moral values are being overshadowed

Simpoziumun açılışı Gəncliyə Yardım Fondunun Dəyər televiziyası tərəfindən Füzuli haqqında hazırlanmış videoçarxın nümayişi ilə başladı. Simpoziumun keçirildiyi Mərmər zalda Gəncliyə Yardım Fondunun təqdimatında Hikmet Barutçugilin "Füzulinin "Su" qəsidəsinə həsr olunmuş əbru sənəti" adlı sərgisi nümayiş olundu. Sonra qonaqları salamlayaraq, tədbiri açıq elan edən Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının Sədri Prof.Akad. Hamlet İsaxanlı Məhəmməd Füzuli irsinin tədqiq tarixindən, onun türk dili və ədəbiyyatının inkişafında oynadığı roldan bəhs edərək, konfransın işinə müvəffəqiyyətlər arzuladı. Rektor Dos.İradə Xəlilova simpoziumun əhəmiyyətinə diqqət çəkərək, simpozium iştirakçılarına uğur dilədi. Tədbirə qonaq olaraq dəvət olunmuş Nizami Gəncəvi adına Milli Azərbay-



*Rafael Hüseynov*



*Aida Qasımova (BDU), Nəzakət Məmmədli*

by wars, terrorism, social insensitivity, and indifference in the world.

The symposium opened with a video presentation about Fuzuli prepared by the Youth Support Fund's "Deyer" television. In the Marble Hall where the conference was held, an exhibition titled "The Art of Ebru Dedicated to Fuzuli's 'Water' Qasida" by Hikmet Barutcugil was presented by the Youth Support Fund. Then, welcoming the guests and declaring the event open, Prof. Academician Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, spoke about the history of research on Mohammad Fuzuli's heritage and his role in the development of Turkish language and literature, wishing success to the conference. Associate Professor Irada Khalilova, the Rector, emphasized the importance of the symposium and wished success to the conference participants. Academician Rafael Huseynov, director of the National Museum of Azerbaijan Literature named after Nizami Ganjavi, who was invited as a guest, highlighted the problems in Azerbaijani Fuzuli studies and expressed the need for a new perspective on the great poet's work. Associate Professor Nazakat Mammadli, director of the Mevlana Institute of Literary and Philosophical Studies, recited Fuzuli's poems and greeted the guests in the poet's language.

The symposium featured presentations from 68 speakers from 7 countries on topics such as "Fuzuli's Predecessors and Successors," "Artistic Features of Fuzuli's Work," "National and Universal Moral Values in Fuzuli's Work," "Wisdom and Sufism in Fuzuli's Work," "Love in Fuzuli's Work," "Naziras and Takhmis Written to



*Aytən Əliyeva (Mərkəzi Elmi Kitabxana)*

can Ədəbiyyatı muzeyinin direktoru akademik Rafael Hüseynov Azərbaycan Füzulişünaslıq elminin problemlərinə diqqət çəkərək dahi şairin yaradıcılığına yeni baxış lazım olduğunu dilə gətirdi. Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun müdiri Dos.Nəzakət Məmmədli Füzuli şeirlərindən səsləndirərək, şairin diliylə qonaqları salamladı.

Simpoziumda "Füzulinin sələfləri və xələfləri", "Füzuli yaradıcılığının sənətkarlıq xüsusiyyətləri", "Füzuli yaradıcılığında milli və ümumbəşəri mənəvi dəyərlər", "Füzuli yaradıcılığında irfan və təsəvvüf", "Füzuli yaradıcılığında eşq", "Füzuli şeirlərinə yazılan nəzirələr və təxmislər", "Füzuli əsərlərinin dünya dillərinə tərcüməsi", "Azərbaycan füzulişünaslığı dünən və bugün: problemlər və perspektivlər", "Füzuli əsərlərinin tədrisi metodikası", "Dünya ədəbiyyatşünaslığında Füzuli yaradıcılığı" kimi mövzularda 7 ölkədən 68 məruzəçinin çıxışı dinlənildi.

Qeyd edək ki, konfransın ilk günü (14 oktyabr) Xəzər Universitetinin Neftçilər kampusunda əyani olaraq baş tutdu, ikinci gün (15 oktyabr) onlayn formatda iştirakçılar dinlənildi. Onlayn hissə zoom platformasında çox müvəffəqiyyətlə təşkil olundu. Azərbaycan, Türkiyə, İran, İraq, Qazaxıstan, Hindistan, Macarıstandan olan məruzəçilər iki gün ərzində dahi Füzuli işığında elmi müzakirələr apardılar. Bağlanış mərasimi və dəyərləndirmə iclası Gəncliyə Yardım Fondunda axşam yeməyi ilə baş tutdu.

İştirakçılar simpoziumun təşkilatçılığını və məzmununu yüksək qiymətləndirdilər, təqdim olunmuş tezislər və məruzələr toplu şəklində nəşr olunacaq.

Fuzuli's Poems," "Translation of Fuzuli's Works into World Languages," "Azerbaijani Fuzuli Studies Yesterday and Today: Problems and Perspectives," "Methodology of Teaching Fuzuli's Works," and "Fuzuli's Work in World Literary Studies."

It should be noted that the first day of the conference (October 14) was held in person at Khazar University's Neftchilar campus, while on the second day (October 15), participants were heard online. The online section was successfully organized on the Zoom platform. Speakers from Azerbaijan, Turkey, Iran, Iraq, Kazakhstan, India, and Hungary conducted scientific discussions in the light of the great Fuzuli over two days. The closing ceremony and evaluation session took place at the Youth Support Fund with a dinner.

Participants highly evaluated the organization and content of the symposium, and the presented abstracts and reports will be published as a collection.



*Xuraman Hümmətova (AMEA, Ədəbiyyat institutu), Dilbər Zeynalova (Xəzər Universiteti)*



*Naci Bakırcı (Konya Mövlana muzeyi)*

# XƏZƏR UNİVERSİTETİNİN RİYAZİYYAT VƏ ONUN TƏTBİQLƏRİ ELMİ-TƏDQİQAT MƏRKƏZİNİN ÜZVÜ NAMİQ QULİYEV DÜNYANIN ƏN NÜFUZLU TƏDQİQATÇILARI SİYAHISINDA

# NAMIG GULIYEV, MEMBER OF THE "SCIENTIFIC RESEARCH CENTER FOR MATHEMATICS AND ITS APPLICATIONS" AT KHAZAR UNIVERSITY, IS LISTED AMONG THE WORLD'S MOST INFLUENTIAL RESEARCHERS



Xəzər Universitetinin Riyaziyyat və Onun Tətbiqləri Elmi-Tədqiqat Mərkəzinin üzvü Namiq Quliyev Stenford Universiteti və Elsevier şirkəti tərəfindən hazırlanmış dünyanın ən nüfuzlu tədqiqatçılarının 2024-cü il üçün siyahısında yer almışdır. Bu siyahının hazırlanması məqsədilə öz-özünə istinadlar, həmmüəlliflərin sayı və digər parametrlər nəzərə alınmaqla, Scopus elmi bazasında hər bir alimə olan istinadlar əsasında onun kompozit istinad xalı (c-score) hesablanır və hər bir elm sahəsi üzrə ən yüksək 2% göstəriciyə malik olanlar seçilir.

Namiq Quliyev bu il Azərbaycandan riyaziyyat sahəsində həmin siyahıya düşmüş iki alimdən biridir. Onun əsas tədqiqat sahəsi diferensial operatorların spektral nəzəriyyəsidir. Namiq Quliyevin 2019-cu ildə "Journal of Mathematical Physics" jurnalında dərc olunmuş məqaləsi redaksiya heyəti tərəfindən ən yaxşı məqalələrdən biri hesab olunaraq, "Featured Article" seçilmişdir, 2023-cü ildə Oksford Universiteti tərəfindən çap olunan "The Quarterly Journal of Mathematics" jurnalındakı məqaləsi isə hal-hazırda həmin jurnalın son iki ildə çap olunmuş ən nüfuzlu məqalələrinin siyahısına başçılıq edir. Onun elmi əsərləri, həmçinin, "Annali di Matematica Pura ed Applicata", "Canadian Mathematical Bulletin", "Inverse Problems" və "Proceedings of the American Mathematical Society" kimi məşhur jurnallarda çap olunmuşdur. Riyaziyyat və onun tətbiqləri elmi-tədqiqat mərkəzinin direktoru Vüqar İsmayılovla birgə neyron şəbəkələr sahəsində məqalələri isə həmin sahənin ən nüfuzlu jurnalları arasında yer alan "Neural Computation", "Neural Networks" və "Neurocomputing" jurnallarında dərc edilmişdir.

Qeyd edək ki, Namiq Quliyev Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun aparıcı elmi işçisi vəzifəsində çalışır.

Namig Guliyev, a member of the "Scientific Research Center for Mathematics and Its Applications" at Khazar University, has been included in the list of the world's most influential researchers for 2024, prepared by Stanford University and Elsevier company. To compile this list, a composite c-score is calculated for each scientist based on citations in the Scopus scientific database, considering self-citations, number of co-authors, and other parameters. Those with the highest 2% in each science field are selected.

Namig Guliyev is one of two scientists from Azerbaijan to be included in this list in the field of mathematics this year. His main research area is the spectrum theory of differential operators. Namig Guliyev's article published in the "Journal of Mathematical Physics" in 2019 was selected as a "Featured Article" by the editorial board, considering one of the best articles. His article published in "The Quarterly Journal of Mathematics" by Oxford University in 2023 currently tops the list of the most prestigious articles published in that journal over the last two years. His scientific works have also been published in renowned journals such as "Annali di Matematica Pura ed Applicata", "Canadian Mathematical Bulletin", "Inverse Problems", and "Proceedings of the American Mathematical Society". His articles in the field of neural networks, co-authored with Vugar Ismailov, the director of the "Scientific Research Center for Mathematics and Its Applications", have been published in "Neural Computation", "Neural Networks", and "Neurocomputing", which are among the most prestigious journals in that field.

It should be noted that Namig Guliyev works as a leading researcher at the Institute of Mathematics and Mechanics of the Ministry of Science and Education of the Republic of Azerbaijan.

# "COP29 ƏRƏFƏSİ: TƏHSİL, İCTİMAİ SƏHİYYƏ VƏ DAVAMLI İNKİŞAFIN ƏLAQƏLƏNDİRİLMƏSİ" MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUM






*İradə Xəlilova*

# "ON THE EVE OF COP29: COORDINATION OF EDUCATION, PUBLIC HEALTH AND SUSTAINABLE DEVELOPMENT" INTERNATIONAL SYMPOSIUM

Oktyabrın 16-da Xəzər Universitetinin Ətraf Mühitin Tədqiqi Mərkəzi tərəfindən universitetin Mərmər zalında "COP29 ərəfəsi: Təhsil, İctimai Səhiyyə və Davamlı İnkişafın Əlaqələndirilməsi" adlı beynəlxalq simpozium keçirilmişdir. Tədbirdə müəllimlər, alimlər, səhiyyə mütəxəssisləri və siyasətçilər bir araya gələrək, iqlim dəyişikliyi ilə bağlı problemləri müzakirə etmişlər. Simpoziumu giriş sözü ilə Xəzər Universitetinin

On October 16, an international symposium titled "On the Eve of COP29: Coordination of Education, Public Health and Sustainable Development" was held in the Marble Hall of Khazar University by the Center for Environmental Studies. Instructors, scientists, healthcare professionals, and politicians gathered at the event to discuss climate change issues. The symposium was opened with an introductory speech by Assoc. Prof. Irada Khalilova,



*Şahnaz Amanova*




*Rövşən Kərimov*



*Əlövsət Quliyev*

rektoru Dos. İradə Xəlilova açmışdır. O, qonaqları salamlayaraq, iqlim dəyişmələri və onların yaratdığı problemlərin müzakirəsinin, bu problemlərin həllində elm və siyasətin qarşılıqlı əlaqələrinin vacib olduğunu vurğulamışdır.

Xəzər Universitetinin Ətraf Mühitin Tədqiqi Mərkəzinin dosenti və Alman Beynəlxalq Əməkdaşlığı Təşkilatının (GIZ) nümayəndəsi Dr. Rövşən Abbasov müasir iqlim dəyişmələrinin insan həyatına tə-




*Günay Həsənova*

sirlərindən və onların qarşısının alınmasında icma və elm fəaliyyətlərinin zəruriliyindən danışmışdır.

Ətraf Mühitin Tədqiqi Mərkəzinin əməkdaşları Dr. Rövşən Kərimov və Dr. Şahnaz Amanova müvafiq olaraq "Şəhərlər və iqlim", "İqlim dəyişmələti və dağ yerlərində miqrasiya" problemləri haqqında məruzə etmişlər.

Liverpul Universitetinin professoru Suzanne Leroy, Bakı Dövlət Universitetinin professoru Məhluqə

Rector of Khazar University. She welcomed the guests and emphasized the importance of discussing climate changes and their resulting problems, as well as the interconnection between science and policy in solving these issues.

Dr. Rovshan Abbasov, Associate Professor at Khazar University's Center for Environmental Studies and representative of the German International Cooperation Organization (GIZ), spoke about the



*Rövşən Abbasov*

impacts of modern climate change on human life and the necessity of community and scientific activities in preventing them.

Dr. Rovshan Karimov and Dr. Shahnaz Amanova,



*Samir Abbasov*



*Məhluqə Yusifova*

Yusifova, Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru professor Əlövsət Quliyev, Xəzər Universitetinin qonaq professoru Natalia Rekhter və başqalarının da iqlim dəyişmələri, sağlamlıq, insan həyatının iqlimlə əlaqəli problemləri mövzularında məruzələri dinlənilib.

GIZ nümayəndələri Günay Həsənova və Samir Abbasov təşkilatın Azərbaycanda keçirdiyi layihə-



lərdən danışmışlar. Simpozium zamanı Xəzər Universitetinin Ekoloji Araşdırmalar Mərkəzi ilə GIZ arasında Azərbaycanda həyata keçirilən layihələr üzrə gələcək əməkdaşlıq da müzakirə olunmuşdur.

Sonra Xəzər Universitetinin Memarlıq və dizayn departamentinin tələbələri iqlim dəyişikliyinə aid öz əl işlərini nümayiş etdirmişlər.



*Natalia Rekhter*

researchers at the Center for Environmental Studies, presented reports on "Cities and Climate" and "Climate Change and Migration in Mountain Areas" respectively.

Presentations were also given by Professor Suzanne Leroy from Liverpool University, Professor Mahluqa Yusifova from Baku State University, Professor Alovsat Guliyev, Director of the Institute of Soil Science and Agrochemistry, Khazar University's visiting professor Natalia Rekhter, and others on topics related to climate change, health, and climate-related problems in human life.

GIZ representatives Gunay Hasanova and Samir Abbasov discussed projects implemented by the



organization in Azerbaijan. During the symposium, future collaboration on projects implemented in Azerbaijan between Khazar University's Center for Environmental Studies and GIZ was also discussed.

Afterward, students of Khazar University's Architecture and Design Department presented artwork dedicated to climate change.

*"Xəzər"in məzunları*

## "DÜNYANI DƏYİŞƏN QADINLAR MÜKAFATLARI" QLOBAL PROQRAMINDA ÜÇ MEDAL QAZANAN XƏZƏR UNİVERSİTETİ MƏZUNU



*Sevinc İsgəndərova*

Oktyabrın 8-də Nyu-Yorkda 2024-cü il üçün "Dünyanı Dəyişən Qadınlar - Amerika" proqramının mükafatlandırma mərasimi keçirilib. Mərasimdə ABŞ-ın Virciniya ştatındakı Bricvota Kollecinin əməkdaşı, Xəzər Universitetinin məzunu Dr. Sevinc İsgəndərova üç mükafatla – "Təhsildə qadınlar", "Yüksələn qadın ulduz" kateqoriyalarında qızıl, "İlin yüksələn lideri" kateqoriyasında bürünc medalla təltif olunub.

Qeyd edək ki,"Dünyanı Dəyişən Qadınlar Mükafatları" dünyada müsbət dəyişikliklər edən qadınların biznes, liderlik, səhiyyə, təhsil, innovasiya və texnologiya da daxil olmaqla müxtəlif sahələrdəki nailiyyətlərini mükafatlandıran qlobal proqramdır və öz cəmiyyətlərinə əhəmiyyətli töhfə verən qadınların artan sayını diqqət mərkəzinə gətirmək və başqalarını müsbət dəyişikliklərə doğru addım atmağa ruhlandırmaq məqsədi daşıyır.

Dr. İsgəndərovanın ali təhsil sahəsində geniş təcrübəsi və mühüm nailiyyətləri var. O, düşündürücü məsləhətlərini də paylaşır: "Bu yol çətin ola bilər, ancaq hər kiçik addım əhəmiyyətlidir. Qətiyyətli olun və təsir gücünüzə inanın."

Dr. İsgəndərovanın ekspertlər tərəfindən rəy almış bir neçə məqaləsi nüfuzlu jurnallarda dərc olunmuş, Dünya Bankının Ali Təhsil Mükafatını qazanmış və tədqiqatları milli və beynəlxalq konfranslarda təqdim edilmişdir.

Qaliblərin tam siyahısına: ***https://wcwawards.com/winners-americas***

"Dünyanı Dəyişən Qadınlar Mükafatları" haqqında: ***https://wcwawards.com/***

## KHAZAR UNIVERSITY ALUMNI WINS THREE MEDAL AT THE "WOMEN CHANGING THE WORLD AWARDS"

"The 2024 Women Changing the World - America Awards" ceremony was held in New York on October 8, 2024. At the ceremony, Dr. Sevinc Iskenderova, a staff member at Bridgewater College in Virginia, USA, and a graduate of Khazar University, was honored with three awards – gold medals in the "Women in Education" and "Rising Star" categories, and a bronze medal in the "Emerging Leader of the Year" category.

It should be noted that "The Women Changing The World Awards" are a global awards program recognising the work of women making a positive difference in the world across a range of industries and areas including business, leadership, health, education, innovation and technology and aim to shine a light on the growing number of women who are making a significant impact in their communities and inspire others to take action towards positive change.

Dr. Iskenderova has extensive experience and significant achievements in higher education. She also shares her thought-provoking advice: "This journey can be challenging, but every small step matters. Be determined and believe in your power to make an impact."

Dr. Iskenderova has published several peer-reviewed articles in prestigious journals, won the World Bank Higher Education Award, and her research has been presented at national and international conferences.

For the complete list of winners, visit: ***https://wcwawards.com/winners-americas***

About the "Women Changing the World Awards": ***https://wcwawards.com/***



Raziyə İsayeva

*"Xəzər"in məzunları*

# XƏZƏR UNİVERSİTETİNİN İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNƏ YENİ DEKAN TƏYİN OLUNUB

# NEW DEAN APPOINTED TO THE SCHOOL OF ECONOMICS AND MANAGEMENT AT KHAZAR UNIVERSITY

Xəzər Universitetinin məzunu Raziyə İsayeva universitetin İqtisadiyyat və menecment fakültəsinin dekanı vəzifəsinə təyin olunub.

Raziyə İsayeva yeni təyinata qədər uzun illər ərzində Xəzər Universitetinin İnkişaf Mərkəzinin direktoru olaraq fəaliyyət göstərib.

R.İsayeva Xəzər Universitetində "Beynəlxalq iqtisadi münasibətlər" üzrə bakalavr dərəcəsi və Biznesin idarə edilməsi (MBA) üzrə magistr dərəcəsi alıb. O, Corc Vaşinqton Universitetindən "Layihələrin idarə edilməsi" üzrə magistr sertifikatına da malikdir. Həmçinin, Böyük Britaniya və ABŞ universitetlərində müxtəlif təlimlər keçib.

2024-cü ildə Finlandiyanın Lapland Universitetində "Postsovet universitetində tələbə məşğulluğu – Azərbaycanda və Estoniyada mövcud vəziyyət və perspektivlər" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək təhsil üzrə fəlsəfə doktoru dərəcəsini alıb. Doktorluq dissertasiyasında postsovet ölkələrində tələbələrin öyrənmə təcrübəsinin təkmilləşdirilməsi yollarını araşdırıb. Tədqiqat postsovet universitetində bunun necə qurulduğunu və tətbiq edildiyini nümayiş etdirməklə tələbə cəlb edilməsi haqqında mövcud biliklərə töhfə verir. Onu da qeyd edək ki, R. İsayevanın Lapland Universitetində keçən müdafiə işində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı da yaxından iştirak

Raziya Isayeva, a graduate of Khazar University, has been appointed as the Dean of the School of Economics and Management at the university.

Prior to this new appointment, Raziya Isayeva served for many years as the Director of the Development Center at Khazar University.

R. Isayeva holds a bachelor's degree in International Economic Relations and a master's degree in Business Administration (MBA) from Khazar University. She also holds a master's certificate in Project Management from George Washington University. Additionally, she has completed various training programs at universities in the United Kingdom and the USA.

In 2024, she received her Ph.D. in Education from the University of Lapland, Finland, defending her doctoral dissertation on "Student Engagement in Post-Soviet University - Current Situation and Perspectives in Azerbaijan and Estonia." In her doctoral dissertation, she investigated ways to improve student learning experiences in post-Soviet countries. The research contributes to existing knowledge about student engagement by demonstrating how it is structured and implemented in post-Soviet universities. It should be noted that Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, also closely participated in R. Isayeva's defense at the University of Lapland.

etmişdir.

R.İsayeva Erasmus+Aİ tərəfindən maliyyələşdirilən layihələrin hazırlanması və idarə edilməsində böyük təcrübəyə malikdir. 2016-2019-cu illər ərzində Azərbaycanda həyata keçirilən Erasmus+ "PETRA" (573630-EPP-1-2016-1-ES-EPPKA2-CBHE-JP) layihəsinin müəllifidir. Həmçinin o, bir çox digər beynəlxalq və milli layihələrin müəllifi və icraçısıdır. R.İsayeva Azərbaycanda fəaliyyət göstərən müxtəlif təşkilatlarda idarəetmə sahəsində böyük təcrübəyə malikdir. Uzun illər sənaye və insan resurslarının idarə edilməsi sahəsində çalışıb.



*Opponent - Prof. Erkko Sointu (Finlandiya Şərq Universiteti), Raziyə İsayeva, elmi rəhbərlər - Prof. Satu Uusiautti, Prof. Ilkka Ratinen (Lapland Universiteti)*

R. Isayeva has extensive experience in developing and managing projects funded by Erasmus+EU. She is the author of the Erasmus+ "PETRA" project (573630-EPP-1-2016-1-ES-EPPKA2-CBHE-JP) implemented in Azerbaijan during 2016-2019. She is also the author and implementer of many other international and national projects. R. Isayeva has extensive management experience in various organizations operating in Azerbaijan.



# NEFT MÜHƏNDİSLİYİ DEPARTAMENTİNİN 25 AKADEMİK LİSENZİYASI VAR

# PETROLEUM ENGINEERING DEPARTMENT HAS 25 ACADEMIC LICENSES

Neft mühəndisliyi departamentinin hazırda KAPPA proqram təminatı üçün 25 akademik lisenziyası var. İnteqrasiya edilmiş proqram platformalarının beşinci nəsli (KAPPA-Workstation) dinamik məlumatların təhlili üçün sənaye standartıdır. Buraya Təzyiq Keçid Analizi, Sürət Keçid analizi, tam sahədə ədədi modelləşdirmə və Formasiya Testi modulları daxildir.

The Department of Petroleum Engineering currently holds 25 academic licenses for KAPPA software. The fifth generation of integrated software platforms (KAPPA-Workstation) is the industry standard for the analysis of dynamic data. It includes modules for Pressure Transient Analysis (Saphir), Rate Transient Analysis (Topaze), full field numerical modeling (Rubis), and Formation Testing (Azurite).

## "ŞİZOFRENİYAYA MÜASİR YANAŞMALAR" MÖVZUSUNDA SEMİNAR

Sentyabrın 8-də Xəzər Universitetinin Psixologiya departamentinin əməkdaşı və Xəzər Psixoloji Xidmət Mərkəzinin psixoloqu Mirsadiq Muxtarov Gənclərə Ümumi Dəstək Birliyinin təşkilatçılığı ilə birliyin ofisində "Şizofreniyaya müasir yanaşmalar" mövzusunda seminar keçirmişdir. Seminarın təşkilində əsas məqsəd gənclərin şizofreniya haqqında maariflənməsi, cəmiyyətdə bu xəstəlikdən əziyyət çəkənlərə qarşı olan stiqma və ayrı-seçkiliyə qarşı fərqindəlik formalaşdırmaq idi.

Seminarda gənclərə şizofreniya anlayışından və onun tarixi inkişafından bəhs edilmişdir. Xəstəliyin epidemiologiyasına nəzər yetirilmiş, risk faktorları vurğulanmışdır. Bununla yanaşı, şizofreniyanın klinik əlamətləri və diaqnostik kriteriyaları qeyd edilərək, xəstəliyin əlamətləri, koqnitiv disfunksiyalara təsiri geniş müzakirə olunmuşdur.

İştirakçıların mövzu ilə əlaqədar sualları təlimçi tərəfindən ətraflı şəkildə cavablandırılmışdır.

## SEMINAR ON "MODERN APPROACHES TO SCHIZOPHRENIA"

On September 8, Mirsadiq Mukhtarov, a staff member of the Psychology Department at Khazar University and psychologist at the Khazar Psychological Service Center, conducted a seminar on "Modern Approaches to Schizophrenia" with organization of the General Union to Youth for Support (GUYS) at the office of so-called union. The main purpose of organizing the seminar was to educate young people about schizophrenia and to raise awareness against stigma and discrimination towards those suffering from this illness in society.

During the seminar, young people were introduced to the concept of schizophrenia and its historical development. The epidemiology of the disease was examined, and risk factors were emphasized. Additionally, the clinical symptoms and diagnostic criteria of schizophrenia were noted, and the symptoms of the disease and its effects on cognitive dysfunctions were extensively discussed.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ VƏ TƏRCÜMƏ MƏRKƏZİ BAKI TƏRCÜMƏ FORUMUNDA

Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova, müəllimi və Tərcümə Mərkəzinin koordinatoru Dr. Elvin Abbasbəyli, tərcümə fənlərini tədris edən müəllimlər Dr. Səyyarə Quliyeva və Elmira Cahangirli, tərcümə ixtisasında təhsil alan tələbələr sentyabrın 22-də Bakıda Azərbaycan Gənc Tərcüməçilər Assosiasiyasının (AGTA) təşkilatçılığı ilə keçirilmiş Bakı Tərcümə Forumunda iştirak ediblər.

Tədbirdə Elvin Abbasbəyli "Uğurlu sinxron tərcüməçi necə yetişir?" adlı məruzə ilə çıxış edib.

Forumda İngilis dili və ədəbiyyatı departamentinin tərcümə ixtisasında təhsil alan 4-cü kurs tələbəsi Aysel Əhmədova AGTA-nın gənclərlə iş üzrə yeni sədri seçilmişdir. Aysel Əhmədova da tədbirdə "AGTA-nın gələcək fəaliyyəti" haqqında qısa məruzə ilə çıxış etmişdir. Azərbaycanın müxtəlif ali təhsil ocaqlarının, tərcümə şirkətlərinin, həmçinin yazılı və şifahi tərcüməçilərin iştirak etdiyi bu forumda dil xidmətləri sahəsində əməkdaşlıq və yenilikləri təşviq etmək üçün tədbirlər müəyyən edilmişdir.

## DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE AND CENTER OF TRANSLATION AND INTERPRETATION AT THE BAKU TRANSLATION FORUM

On September 22, Dr. Milana Abbasova, head of the Department of English Language and Literature at Khazar University, Elvin Abbasbeyli, instructor and coordinator of the Center of Translation and Interpretation, Dr. Sayyara Guliyeva and Elmira Jahangirli, instructors of translation subjects, along with students majoring in translation, participated in the Baku Translation Forum organized by the Azerbaijan Young Translators Association (AYTA) in Baku.

At the event, Elvin Abbasbeyli delivered a presentation titled "How to Develop a Successful Simultaneous Interpreter?"

During the forum, Aysel Ahmadova, a 4th-year student majoring in translation at the Department of English Language and Literature, was elected as the new chair for youth affairs of AYTA. Aysel Ahmadova also gave a brief presentation on "AYTA's Future Activities" at the event.

The forum, which was attended by various higher education institutions, translation companies, as well as written and oral translators from Azerbaijan, identified measures to promote cooperation and innovation in the field of language services.




*İngilis dili və ədəbiyyatı departamentinin müəllimləri Elmira Cahangirli, Səyyarə Quliyeva, tərcümə məsələləri üzrə mütəxəssis Renato Beninatto, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Milana Abbasova, Humanitar, təhsil və sosial elmlər fakültəsinin ingilis dili müəllimliyi ixtisası üzrə tələbəsi Adilə Abbasova*





*Gülnarə İlham*

# "ÜNSİYYƏT BACARIQLARININ KARYERADA ROLU" MÖVZUSUNDA TƏLİM

# TRAINING ON "THE ROLE OF SOFT SKILLS IN CAREER"

Sentyabrın 23-də Xəzər Universitetinin Tərcümə Mərkəzinin təşkilatçılığı və İngilis dili və ədəbiyyatı departamentinin dəstəyi ilə təlimçi Gülnarə İlham "Ünsiyyət bacarıqlarının karyerada rolu" mövzusunda tələbələrə təlim keçib.

Tədbiri giriş sözü ilə açan Tərcümə Mərkəzinin koordinatoru Elvin Abbasbəyli təlimçi G. İlhamı İngilish dili və ədəbiyyatı departamentinin tələbələrinə təqdim edib. Bildirib ki, Azərbaycan Dövlət İqtisad Universitetinin Karyera planlaması və inkişafı kafedrasının müəllimi olan G. İham, eyni zamanda, effektiv ünsiyyət, səlis nitq, ünsiyyət bacarıqları və karyera planlaması üzrə təlimlər həyata keçirir. E. Abbasbəyli Tərcümə Mərkəzi haqqında da məlumat verib.

Sonra G. İlham ünsiyyət bacarıqlarının tərcüməçilərin karyerasındakı yerindən və oynadığı mühüm roldan bəhs edib, iştirak edən tələbələrlə müxtəlif çalışmalar keçirib və sualları cavablandırıb.

On September 23, Khazar University's Center of Translation and Interpretation, in collaboration with the Department of English Language and Literature, organized a training session led by Gulnara Ilham on the topic "The role of soft skills in a career".

Elvin Abbasbeyli, the coordinator of the Center of Translation and Interpretation, opened the event by introducing Gulnara Ilham to the students from the English Language and Literature department. He said that Gulnara Iham, an instructor of the Department of Career Planning and Development of the Azerbaijan State University of Economics, also offers training on topics such as effective communication, fluent speech, soft skills, and career development. Additionally, E. Abbasbeyli provided some details about the Center of Translation and Interpretation.

G. Ilham discussed the significance of soft skills for translators' careers, emphasizing their critical impact. She also led several interactive exercises with the students and answered questions.

# FİZİKA VƏ ELEKTRONİKA DEPARTAMENTİNİN ƏMƏKDAŞI "CODERS AZERBAIJAN" TƏDRİS MƏRKƏZİNİN TƏDBİRİNDƏ

# PHYSICS AND ELECTRONICS DEPARTMENT STAFF MEMBER AT "CODERS AZERBAIJAN" TRAINING CENTER EVENT

Sentyabrın 24-də "Coders Azerbaijan" Tədris Mərkəzinin məhsulu olan "Performans Sistemi"- nin təqdimat günü keçirilib.

Təqdimat Almaniyanın "Bildungswerk Der Baden" qurumu (Baden təhsil müəssisəsi) və "Coders Azerbaijan"ın birgə təşkilatçılığı ilə baş tutub.

Tədbirdə əvvəlcə Almaniyanın təhsil sistemi və Azərbaycanda kadr ehtiyacları müzakirə edilib, sonra universitet nümayəndələrinin iştirakı ilə panel müzakirəsi aparılıb və "Performans Sistemi" adlı mobil tətbiq təqdim olunub.

Panel müzakirəsində Xəzər Universitetinin Fizika və elektronika departamentinin müəllimi Sevinc Quluzadə də çıxış edərək, rəqəmsal məlumat sistemlərinin müasir rolu və gələcək inkişaf perspektivləri barədə fikirlərini bölüşüb.

Tələbə məlumatlarını və idarəetmə sistemini bir araya gətirən mobil tətbiq geniş funksionallıqları ilə fərqlənir və tələbələrin motivasiyasını daima yüksək tutmaq məqsədi ilə hazırlanmışdır. Bu geniş miqyaslı platforma "Coders Azerbaijan" tərəfindən ölkə daxilində bir çox müəssisəyə uyğun şəkildə inteqrasiya edilmiş və xarici bazara da çıxarılmışdır.

Qeyd edək ki, "Coders Azerbaijan" 2015-ci ildə təsis edilmiş və 2017-ci ildən etibarən intensiv təlim modeli əsasında tədris fəaliyyətinə başlamışdır. Həmçinin, "Coders Azerbaijan" ölkədə "Python Institution" (Python İnstitutu) və "IC Councils"-ın (Beynəlxalq Kod Şurası) yeganə akkreditasiya olunmuş təhsil mərkəzidir.

On September 24, a presentation day was held for the "Performance System", a product of the "Coders Azerbaijan" training center.

The presentation was jointly organized by Germany's "Bildungswerk Der Baden" institution and "Coders Azerbaijan".

At the event, the German education system and personnel needs in Azerbaijan were first discussed, followed by a panel discussion with university representatives, and a mobile application called "Performance System" was presented.

In the panel discussion, Sevinj Guluzade, a lecturer from the Physics and Electronics Department of Khazar University, also spoke, sharing her thoughts on the modern role of digital information systems and future development prospects.

The mobile application, which combines student information and management systems, stands out with its extensive functionality and is designed to keep students' motivation consistently high. This large-scale platform has been integrated by "Coders Azerbaijan" into many institutions within the country and has also been introduced to the foreign market.

It should be noted that "Coders Azerbaijan" was established in 2015 and has been conducting educational activities based on an intensive bootcamp model since 2017. Additionally, "Coders Azerbaijan" is the only accredited education center of "Python Institution" and "IC Councils" in the country.

## BEYNƏLXALQ ISBN AGENTLİYİNİN ÜMUMİ İLLİK GÖRÜŞÜ

Sentyabrın 24-25-də Fransanın Paris şəhərində Beynəlxalq ISBN Agentliyi ISBN (Beynəlxalq Standart Kitab Nömrəsi) və ISMN (Beynəlxalq Standart Musiqi Nömrəsi) xidmətləri üzrə milli və regional agentliklərin nümayəndəliklərinin iştirakı ilə ümumi illik görüş keçirib.

Agentliyin dünya üzrə bütün milli və regional nümayəndəliklərindən dəvət olunmuş 100-ə yaxın real və 50-yə yaxın virtual iştirakçının qatıldığı tədbirdə Beynəlxalq ISBN Agentliyinin Azərbarcan Respublikası üzrə Xəzər Universiteti Milli Mərkəzinin koordinatoru Səbinə Əlimərdanova iştirak etmişdir.

Tədbirdə Fransa Milli Kitabxanasının prezidenti Gilles Pecout, kitabxananın xidmət şöbəsinin müdiri Denis Mollat və Beynəlxalq ISBN Agentliyinin sədri Beat Barblan çıxış edərək, ötən müddət ərzində agentliyin fəaliyyəti haqqında ümumi məlumat vermişlər.

Görüşdə ISBN sistemi və nəşriyyat işi ilə bağlı bir çox önəmli məsələlər, Fransanın kitab bazarı, 2025-2026-cı illər üçün üzvlük haqlarına edilmiş dəyişikliklər, maliyyə hesabatları, rəhbər şəxslərin hesabatları müzakirə edilib. Həmçinin, Beynəlxalq ISBN Agentliyinin fəaliyyəti ilə bağlı bəzi dəyişiklik və xəbərlər paylaşılıb.

## ANNUAL GENERAL MEETING OF THE INTERNATIONAL ISBN AGENCY

On September 24-25, the International ISBN Agency held its annual general meeting in Paris, France, with the participation of representatives from national and regional agencies for ISBN (International Standard Book Number) and ISMN (International Standard Music Number) services.

Sabina Alimardanova, coordinator of the Khazar University National Center for the Republic of Azerbaijan of the International ISBN Agency, participated in the event, which was attended by nearly 100 in-person and about 50 virtual participants invited from all national and regional representations of the agency worldwide.

At the event, Gilles Pecout, President of the National Library of France, Denis Mollat, head of the library's service department, and Beat Barblan, Chairman of the International ISBN Agency, spoke and provided general information about the agency's activities over the past period.

The meeting discussed many important issues related to the ISBN system and publishing work, the French book market, changes made to membership fees for 2025-2026, financial reports, and reports from leading figures. Additionally, some changes and news regarding the activities of the International ISBN Agency were shared.



*Səbinə Əlimərdanova*

## MAFİ-NİN KOORDİNATORU 10-CU TÜRK DİL QURULTAYINDA

Sentyabrın 26-27-də Türkiyənin Ankara şəhərində Türk Dil Qurumunun təşkilatçılığı ilə 10-cu Beynəlxalq Türk Dil Kurultayı keçirildi. Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin dosenti, həmçinin Mədəni Antropologiya və Folklor İnstitutunun (MAFİ) koordinatoru Aynur Qəzənfərqızı da həmin toplantıda "Ruscadan qumuqcaya keçmiş kalkalar" başlıqlı məruzə ilə çıxış etmiş və sertifikat almışdır.

Qurultayda 26 ölkədən 200-ə yaxın alim iştirak edib. Qurultayda Türk dilinin dünya dili olması, ortaq türkcə, ortaq türk əlifbası, digər dillərdə türkcə sözlərin işlənilməsi və s. mövzularda bir çox məruzələr dinlənilib. Qeyd edək ki, Türk Dil Qurultayı Atatürkün qərarı ilə 1932-ci ildən, yəni Türk Dil Qurumunun yarandığı ildən etibarən hər dörd ildən bir keçirilir.

## ICAF COORDINATOR AT THE 10TH TURKISH LANGUAGE CONGRESS

On September 26-27, the 10th International Turkish Language Congress was held in Ankara, Türkiye, organized by the Turkish Language Institution. Aynur Gazanfargizi, associate professor of the Department of Languages and Literature at Khazar University and coordinator of the Institute of Cultural Anthropology and Folklore (ICAF), presented a report titled "Calques transferred from Russian to Kumyk" at the meeting and received a certificate.

Nearly 200 scholars from 26 countries attended the congress. The congress featured numerous presentations on topics such as Turkish becoming a world language, common Turkish, common Turkish alphabet, the use of Turkish words in other languages, and more. It should be noted that the Turkish Language Congress has been held every four years since 1932, the year the Turkish Language Institution was established, by decision of Atatürk.

## PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞI BEYNƏLXALQ LAYİHƏDƏ MENTOR OLDU

## EMPLOYEE OF THE PSYCHOLOGY DEPARTMENT BECAME A MENTOR IN AN INTERNATIONAL PROJECT

Xəzər Universitetinin Psixologiya departamentinin əməkdaşı və Xəzər Psixoloji Xidmət Mərkəzinin psixoloqu Mirsadiq Muxtarov Beynəlxalq Vişeqrad Fondunun "Vişeqrad Qrantları" vasitəsilə maliyyələşdirdiyi "Gənclər sektorunda rəqəmsal transformasiya – Vişeqrad fondunun əhatə etdiyi ölkələrin təcrübəsi" layihəsi çərçivəsində hazırlanmış "Digiuth" platformasında mentor olaraq fəaliyyət göstərəcək.

Layihə Vişeqrad fondunun əhatə etdiyi ölkələrin təcrübəli təşkilatları ilə əməkdaşlıq edərək, Azərbaycanda gənclər təşkilatlarının və gənclərin rəqəmsal öyrənmə resurslarının artırılmasını hədəfləyir.

Mirsadiq Muxtarovun bu platformada mentor olaraq əsas məqsədi Azərbaycanda psixi sağlamlıq mövzuları ilə bağlı məlumatlılığı artırmaq, şəxslərin psixoloji və emosional rifahının artırılmasına təşəbbüs göstərməkdir.

Mirsadiq Mukhtarov, a staff member of Khazar University's Psychology Department and psychologist at the Khazar Psychological Service Center, will serve as a mentor on the "Digiuth" platform, developed within the framework of the project "Digital Transformation in the Youth Sector - Experience of Visegrad Countries" funded by the International Visegrad Fund through "Visegrad Grants".

The project aims to increase digital learning resources for youth organizations and young people in Azerbaijan by collaborating with experienced organizations from Visegrad countries.

Mirsadiq Mukhtarov's main goal as a mentor on this platform is to raise awareness about mental health issues in Azerbaijan and to take initiative in improving individuals' psychological and emotional well-being.

## TƏHSİL TƏLƏBƏ KREDİTİ FONDUNUN ƏMƏKDAŞI "XƏZƏR"DƏ

## EDUCATION STUDENT CREDIT FUND REPRESENTATIVE AT "KHAZAR"




*Günay Xəlilova*



Sentyabrın 30-da Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə Təhsil Tələbə Krediti Fondu əməkdaşının Xəzər Universitetinin ödənişli əsaslarla təhsil alan 1-ci kurs tələbələri ilə görüşü keçirilmişdir.

Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva tədbiri açaraq, ölkədə son illər ərzində təhsil sahəsində aparılan islahatların önəmindən danışdı, təhsilalanlara geniş imkanların yaradıldığını qeyd etdi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondunun yaradılması və fəaliyyət göstərməsinin mühüm addımlardan biri olduğunu vurğuladı.

Sonra Təhsil Tələbə Krediti Fondunun Təhsil müəssisələri üzrə iş şöbəsinin baş mütəxəssisi Günay Xəlilova fondun yaranma tarixi, məqsədi, tələbələr üçün yaratdığı imkanlar, təhsil tələbə kreditlərinin verilməsi qaydaları haqqında ətraflı məlumat verdi. O, təhsil tələbə kreditlərinin verilməsinin ilkin şərtləri, mərhələləri, kredit şərtlərinin üstünlükləri kimi məsələlərə aydınlıq gətirərək, tələbələri bu imkanlardan yararlanmağa dəvət etdi.

Tədbirin sonunda tələbələrin sualları cavablandırıldı.

On September 30, the Career and Alumni Center organized a meeting between a representative of the Education Student Credit Fund and first-year fee-paying students of Khazar University.

Zarifa Aliyeva, Director of the Career and Alumni Center, opened the event and spoke about the importance of reforms carried out in the education sector in recent years, noting that wide opportunities have been created for students. She emphasized that the establishment and operation of the Education Student Credit Fund under the Ministry of Science and Education of the Republic of Azerbaijan is one of the important steps.

Then, Gunay Khalilova, Chief Specialist of the Department for Educational Institutions at the Education Student Credit Fund, provided detailed information about the fund's history, purpose, opportunities created for students, and rules for granting education student loans. She clarified issues such as the initial conditions for granting education student loans, stages, and advantages of loan terms, inviting students to take advantage of these opportunities.

At the end of the event, students' questions were answered.

# TƏLƏBƏLƏR ARXEOLOJİ MUZEY EKSPOZİSİYASINDA

# STUDENTS AT THE ARCHAEOLOGICAL MUSEUM EXHIBITION

Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi ixtisasında təhsil alan I kurs tələbələri tədris ilinin ilk dərslərinə Tarix və arxeologiya departamentinin müəlllimi Orxan Zamanovun təşkilatçılığı ilə AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Muzey-Sərgi" zalında başladılar və həmin institutun "Elmi Fond və Ekspozisiya" müdiri Dr. Ceyhun Eminlinin dəstəyi ilə arxeoloji eksponatlar və tapıntılar ilə bilavasitə tanışlıq çərçivəsində ilk arxeoloji ekskursiyaları baş tutdu.

Sentyabrın 26-sı və oktyabrın 1-də keçirilən ekskurs-dərslər zamanı fənn müəllimi Orxan Zamanov tələbələrə Azərbaycanın nümunəsində dünyanın maddi-mədəni irsinin arxeoloji cəhətdən öyrənilməsi və muzey-sərgi zalında saxlanılan arxeoloji nümunələr haqqında tədris materialı ilə əlaqəli və əhatəli məlumat vermişdir. Həmçinin, tələbələrlə arxeoloji nümunələr əsasında fikir mübadiləsi, onların öyrənilmə üsulları və dünyada yeri haqqında müzakirələr aparılmışdır.

AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Muzey-Sərgi" zalı və ekspozisiyadakı arxeoloji materiallarla tanışlıq tələbələrdə ciddi təəssürat yaradaraq, onların dərsə olan marağını hiss olunacaq dərəcədə artırmışdır. Qeyd etmək lazımdır ki, bu tərz ekskurs-dərslər tələbələrin əldə etdikləri nəzəri biliklərin möhkəmləndirilməsinə xidmət edir və bu ənənəvi olaraq təşkil olunur.

First-year students majoring in History Education at the Faculty of Humanities, Education, and Social Sciences began their first lessons of the academic year in the "Museum-Exhibition" hall of the Institute of Archaeology and Anthropology of ANAS, organized by Orkhan Zamanov, a teacher from the Department of History and Archaeology. With the support of Dr. Jeyhun Eminli, the head of "Scientific Fund and Exhibition" of the institute, the students had their first archaeological excursion, directly familiarizing themselves with archaeological exhibits and findings.

During the excursion lessons held on September 26 and October 1, the subject teacher Orkhan Zamanov provided the students with comprehensive information related to the curriculum about the archaeological study of the world's material and cultural heritage, using Azerbaijan as an example, and about the archaeological samples stored in the museum-exhibition hall. Also, discussions were held with students based on archaeological samples, their study methods, and their place in the world.

Familiarity with the "Museum-Exhibition" hall of the Institute of Archaeology and Anthropology of ANAS and the archaeological materials in the exhibition made a serious impression on the students, noticeably increasing their interest in the lesson. It should be noted that such excursion lessons serve to reinforce the theoretical knowledge acquired by students and are traditionally organized.

# "FAİRMONT BAKI" "XƏZƏR"DƏ

Oktyabrın 1-də Xəzər Universiteti Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə "Fairmont Bakı" hotelinin nümayəndələrinin Xəzər Universitetinin "Turizm işinin təşkili" ixtisası üzrə təhsil alan tələbələri ilə görüşü keçirildi.



*Fidan Hüseynova*



"Fairmont Bakı" hotelinin Heyətin idarə olunması departamentinin direktoru Fidan Hüseynova hotelin yaranma tarixi, missiyası, iş prinsipləri, həmçinin tələbələr üçün nəzərdə tutulan ödənişsiz təcrübə proqramı haqqında ətraflı məlumat verdi. Tədbirin sonunda sözügedən təcrübə proqramı çərçivəsində tələbələr müsahibədə iştirak etdilər. Müsahibədən uğurla keçən 10 tələbə "Fairmont Bakı" hotelində 3 aylıq ödənişsiz təcrübə keçəcək.

# FAIRMONT BAKU AT KHAZAR UNIVERSITY

On October 1, representatives from the Fairmont Baku hotel met with students majoring in "Tourism Management" at Khazar University. The event was organized by the university's Career and Alumni Center.

Fidan Huseynova, Director of Human Resources at Fairmont Baku, provided detailed information about the hotel's history, mission, and operating principles. She also introduced a student-focused unpaid internship program. Following the event, students participated in interviews for the internship program. 10 successful candidates will undergo a three-month unpaid internship at Fairmont Baku.

# RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORLARININ BİRGƏ MƏQALƏSİ "RENDICONTI DEL CIRCOLO MATEMATICO DI PALERMO SERIES 2" JURNALINDA

# JOINT ARTICLE BY MATHEMATICS DEPARTMENT PROFESSORS PUBLISHED IN "RENDICONTI DEL CIRCOLO MATEMATICO DI PALERMO SERIES 2" JOURNAL




Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Riyaziyyat departamentinin professoru, akademik Hamlet İsaxanlının və eyni departamentin professoru Biləndər Allahverdiyevin "Eigenfunction expansion for impulsive singular Hahn-Dirac system" ("İmpulsiv sinqulyar Han-Dirak sisteminin məxsusi funksiyaları üzrə ayrılış") adlı birgə məqaləsi "Rendiconti del Circolo Matematico di Palermo Series 2" jurnalında (2024, Cild 73, № 5) dərc edilmişdur. Qeyd edək ki, "Rendiconti del Circolo Matematico di Palermo Series 2" jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indekslənib.

Məqalədə sinqulyar impulsiv Han-Dirak sistemi tədqiq edilir. Bu sistem üçün spektral funksiya qurulur. Bu funksiyanın köməyi ilə Parseval bərabərliyi isbat olunur və məxsusi funksiyalar üzrə ayrılış düsturu əldə edilir.

A joint article titled "Eigenfunction expansion for impulsive singular Hahn-Dirac system" by Hamlet Isakhanli, the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, professor of the Mathematics Department, academician, and Bilender Allahverdiyev, professor of the same department, has been published in the journal "Rendiconti del Circolo Matematico di Palermo Series 2" (2024, Volume 73, No. 5). It should be noted that the journal "Rendiconti del Circolo Matematico di Palermo Series 2" is indexed in the "Web of Science" and "Scopus" databases.

In this study, a singular impulsive Hahn-Dirac system is studied. A spectral function has been established for this type of system. With the help of this function, the Parseval equation and eigenfunction expansion were obtained.

*https://link.springer.com/article/10.1007/s12215-024-01028-0*
*https://link.springer.com/journal/12215*

# "FULBRAYT" TƏDQİQAT VƏ "İNGİLİS DİLİ EKSPERTİ" PROQRAMLARININ TƏQAÜDÇÜLƏRİ UNİVERSİTET HEYƏTİNƏ TƏQDİM OLUNDU

# FULBRIGHT RESEARCH AND ENGLISH LANGUAGE FELLOW PROGRAM SCHOLARS INTRODUCED TO UNIVERSITY STAFF



*Natalia Rekhter*

Sentyabrın 25-də Xəzər Universitetinin "Neftçilər" kampusunda Nailəxanım Mədəniyyət Mərkəzində "Fulbrayt" tədqiqatçısı Dr. Natalia Rekhter və "İngilis Dili Eksperti" proqramının təqaüdçüsü Michael Collins universitet heyətinə təqdim olundular.

Dr. Natalia Rekhter`in proqram çərçivəsində İqtisadiyyat və biznes yüksək təhsil fakültəsində Səhiyyə iqtisadiyyatı və Səhiyyə idarəetməsi fənlərindən mühazirə oxuması, Michael Collins`in isə ingilis dili müəllimlərinin dərslərində müşahidələr apararaq, tələbələrin dil öyrənmə bacarıqlarının inkişaf etdirilməsi üçün təlimlər keçirməsi nəzərdə tutulur.

Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova və ABŞ-ın Azərbaycandakı səfirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Bill Murad qısa nitq söylədilər. Sonra qonaq tədqiqatçılar öz təəssüratlarını bölüşdülər.

Görüşdə Xəzər Universitetinin fakültə dekanları, departament müdirləri və əməkdaşlar, ABŞ-ın Azərbaycandakı səfirliyinin əməkdaşları – İngilis dili üzrə Proqram koordinatoru Səbinə

On September 25, Fulbright researcher Dr. Natalia Rekhter and English Language Fellow program scholar Michael Collins were introduced to the university staff at the Nailakhanim Culture Center in Khazar University's "Neftchilar" campus.

As part of the program, Dr. Natalia Rekhter is expected to lecture on Health Economics and Health Management at the Faculty of Economics and Business Higher Education, while Michael Collins will observe English language teachers' classes and conduct trainings to develop students' language learning skills.



*Michael Collins*

Khazar University Rector Assoc. Prof. Irada Khalilova and Bill Murad, Head of the Public Affairs Section at the U.S. Embassy in Azerbaijan, gave brief speeches. Then, the guest researchers shared their impressions.

The meeting was also attended by Khazar University's faculty deans, department heads, and staff, as well as U.S. Embassy in Azerbaijan staff - Sabina Abdullayeva, English Language Program Coordinator, and Khanim Teilova,

Abdullayeva və Təhsil üzrə mütəxəssis Xanim Teilova da iştirak edirdilər.

Tədbirdə Xəzər Universiteti Kamera orkestrinin (bədii rəhbər universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova və orkestrin dirijoru Meri Çeminava) konserti təqdim olundu. Qonaqlar üçün çay süfrəsi açıldı.Tədbirin sonunda rektor İradə Xəlilova qonaq tədqiqatçılara hədiyyələr təqdim etdi.

Qeyd edək ki, hər iki proqram ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilir. Onu da qeyd edək ki, "İngilis Dili Eksperti" təqaüd proqramı ingilis dilinin digər dildə danışan insanlara tədrisi və ya ingilis dilinin xarici dil kimi tədrisi sahələrində yüksək ixtisaslaşmış ABŞ tədrisçilərinin dünyanın müxtəlif hissələrinin tədris qurumlarında 10 aylıq müddəti əhatə edən fəaliyyəti üçün nəzərdə tutulmuş təqaüd proqramıdır.



*Bill Murad*



*Fərida Tatardar, Lyudmila Sotova, Fəxrəndə Əlimərdanova, Xanım Öməroğlu*

Education Specialist.

The event featured a concert by the Khazar University Chamber Orchestra (artistic director Zulfiyya Sadigova, honored teacher, pianist, head of the university's Music and Art Department, and orchestra conductor Meri Cheminava). A tea table was set for the guests. At the end of the event, Rector Irada Khalilova presented gifts to the guest researchers.

It should be noted that both programs are funded by the U.S. Department of State. It's also worth mentioning that the "English Language Fellow" scholarship program is designed for highly specialized U.S. instructors in the fields of teaching English to speakers of other languages or teaching English as a foreign language, for a 10-month period at educational institutions in various parts of the world.






*Julie Shortridge*

# "FULBRAYT" TƏQAÜDÇÜSÜNÜN COP29 ÇƏRÇİVƏSİNDƏ SEMİNARI

Oktyabrın 2-də Xəzər Universiteti və ABŞ-ın Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə "Fulbrayt" təqaüdçüsü, Virciniya Texnologiya Universitetinin dosenti Dr. Julie Shortridge tərəfindən iqlim dəyişikliyi və dayanıqlılığı mövzusunda seminar keçirilmişdir. Seminar COP29 tədbirləri çərçivəsində baş tutmuşdur. Tədbirdə ABŞ-ın Azərbaycandakı səfirliyinin Mədəniyyət işləri üzrə müşaviri Randy Cole iştirak etmişdir.

Dr. Julie Shortridge öz məruzəsində transformativ uyğunlaşmanın əhəmiyyəti, iqlim dəyişikliyinin yaratdığı problemlərin öhdəsindən gəlmək üçün yeni texnologiyaların və uzunmüddətli həll yollarının inkişaf etdirilməsinin zəruriliyindən danışmışdır. Həmçinin, iqlim dəyişikliyinə uyğunlaşma mövzusunda ictimai maarifləndirmənin artırılmasının və bu sahədə təhsilin əhəmiyyətini də vurğulamışdır. Natiq onu da qeyd etmişdir ki, STEM (Elm, Texnologiya, Mühəndislik

# FULBRIGHT SCHOLAR'S SEMINAR WITHIN THE FRAMEWORK OF COP29

On October 2, a seminar on climate change and sustainability was conducted by Fulbright scholar Dr. Julie Shortridge, Associate Professor at Virginia Tech University, jointly organized by Khazar University and the US Embassy in Azerbaijan. The seminar took place within the framework of COP29 events and was welcomed with great interest by students. The event was attended by Randy Cole, cultural affairs representative of the US Embassy in Azerbaijan.

In her presentation, Dr. Julie Shortridge discussed the importance of transformative adaptation, the necessity of developing new technologies and long-term solutions to address the problems caused by climate change. She also emphasized the importance of enhancing public awareness and education on climate change adaptation. The speaker also noted that increasing diversity in STEM (Science, Technology, Engineering, and Mathematics) fields is crucial, especially in solving complex problems like climate change. By bringing together different experiences and ideas, more innovative and ef-

və Riyaziyyat) sahələrində müxtəlifliyin artması, xüsusilə iqlim dəyişikliyi kimi mürəkkəb problemlərin həllində olduqca vacibdir. Fərqli təcrübələrin və ideyaların bir araya gəlməsi ilə daha müasir və səmərəli həll yolları inkişaf etdirilə bilər.

Seminarın sonunda Dr. Shortridge professor-müəllim heyətinin və tələbələrin müxtəlif suallarını cavablandırmışdır. Sonra, Xəzər Universitetinin rəhbərliyi ABŞ səfirliyinə və Dr. Julie Shortridge`yə əhəmiyyətli elmi müzakirələrə görə təşəkkür bildirmişdir.





*Randy Cole*

fective solutions can be developed.

At the end of the seminar, Dr. Shortridge answered various questions from faculty and students. Afterwards, the leadership of Khazar University thanked the US Embassy and Dr. Julie Shortridge for the significant scientific discussions.




*İradə Xəlilova, Julie Shortridge*

# POLTAVA DÖVLƏT AQRAR UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ

# DELEGATION FROM POLTAVA STATE AGRARIAN UNIVERSITY AT KHAZAR



*Şostiya Anatoliy, İlona Yasnolob, Oleksandr Halych, Usenko Svitlana*

Oktyabrın 3-də Xəzər Universiteti Ukraynanın Poltava Dövlət Aqrar Universitetinin nümayəndə heyətini qəbul edib.

Qəbul Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova, Tədris işləri üzrə prorektor Prof. Məhəmməd Nuriyev, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekan vəzifəsini icra edən Günel Bahəddinova, İqtisadiyyat və menecment fakültəsinin dekan vəzifəsini icra edən Xanım Nəbiyeva, Həyat elmləri departamentinin müdiri Cəmalə Eldarova, Həyat elmləri departamentinin Baytarlıq təbabəti üzrə koordinatoru Çiçək Əliyeva və Beynəlxalq

On October 3, Khazar University received a delegation from Poltava State Agrarian University of Ukraine.

The meeting with delegation was attended by Assoc. Prof. Irada Khalilova, Rector of Khazar University, Prof. Muhammad Nuriyev, Vice-Rector for Academic Affairs, Ingilab Ahmadov, Dean of the Graduate School of Economics and Business, Lyudmila Sotova, Director of the Quality Assurance Center, Gunel Bahaddinova, Acting Dean of the Graduate School of Science, Arts and Technology, Khanim Nabiyeva, Acting Dean of the Faculty of Economics and Management, Jamala Eldarova, Head of the Department of Life Sciences, Chichek Aliyeva, Coordinator for Veterinary Medicine at the Department of Life Sciences, and Fatima Valiyeva, Head of

əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyevanın iştirakı ilə keçib.

Poltava Dövlət Aqrar Universitetindən isə Universitetin rektoru Oleksandr Halych, Elmi işlər üzrə prorektor Şostiya Anatoliy, Kənd təsərüfatı və qida texnologiyaları fakültəsinin dekanı Usenko Svitlana, Elmi və Tədqiqat şöbəsinin müdiri İlona Yasnolob iştirak ediblər. Fatimə Vəliyeva və qonaqlar təmsil etdikləri universitetlər haqqında ətraflı məlumat veriblər.

Poltava Dövlət Aqrar Universiteti və Xəzər Universiteti arasında tərəfdaşlıq və əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılaraq, müqavilə imzalanıb.

Görüşün sonunda hədiyyələr təqdim olunub və xatirə şəkilləri çəkilib.




*Oleksandr Halych, İradə Xəlilova*

the International Relations Department.

The delegation from Poltava State Agrarian University included Oleksandr Halych, Rector of the University, Shostia Anatoliy, Vice-Rector for Scientific Affairs, Usenko Svitlana, Dean of the Faculty of Agriculture and Food Technology, and Ilona Yasnolob, Head of the Scientific Research Department. Fatima Valiyeva and the guests provided detailed information about their respective universities.

Discussions were held on strengthening partnership and relations between Poltava State Agrarian University and Khazar University, and an agreement was concluded.

At the end of the meeting, gifts were presented and commemorative photos were taken.

## MƏZUNLARLA GÖRÜŞ: “MƏNDƏDİR, SƏNDƏDİR, MÜƏLLİM ÖMRÜ”

## MEETING WITH ALUMNI: "THE LIFE OF A TEACHER IS IN YOU AND ME"



*Fərid Kərimov, Barat Əlizadə, Ayşəm Başirova, İlahə Tinasanova, Zərifə Əliyeva, Dilbər Zeynalova*

Oktyabrın 3-də Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı, Dillər və ədəbiyyatlar departamentinin dəstəyi ilə 5 oktyabr - Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş “Məndədir, səndədir, müəllim ömrü” adlı tədbir keçirildi.

Tədbirdə Xəzər Universitetinin “Azərbaycan dili və Ədəbiyyatı müəllimliyi” və “Filologiya (“Azərbaycan dili və Ədəbiyyatı”) ixtisaslarına bu il qəbul olunmuş birinci kurs tələbələri, həmçinin eyni ixtisaslar üzrə müxtəlif illərdə təhsil almış məzunlar - Fərid Kərimov (CELT Colleges, xaricdə təhsil üzrə menecer), Barat Əlizadə ( Makropack şirkətinin rəhbəri), Vəfa Abbaslı (Gədəbəy şəhər İlham Əliyev adına 1 nömrəli tam orta məktəbin direktor müavini, Azərbaycan dili və Ədəbiyyatı müəllimi), Ayşəm Başirova (Azərbaycan televiziyası QSC - aparıcı, müxbir, redaktor), İlahə Tinasanova (Bakı Modern Təhsil kompleksi, departament rəhbəri), Arifə Mahmudova (FZ Academy, Azərbaycan dili və Ədəbiyyatı müəllimi, təlimçi) və Aytac Vəliyeva (ARB Media Group, “Gündəlik Teleqraf” MMC - müxbir, redaktor), həmçinin, universitetdə onlara dərs demiş bəzi müəllimlər iştirak edirdilər.

On October 3, an event titled "The Life of a Teacher is in You and Me" was held, dedicated to October 5 - International Teachers' Day. The event was organized by the Career and Alumni Center with the support of the Department of Languages and Literature.

The event was attended by first-year students newly admitted to Khazar University's "Azerbaijan Language and Literature Teaching" and "Philology (Azerbaijan Language and Literature)" programs, as well as alumni who graduated from the same specialties in different years. The alumni included Farid Karimov (CELT Colleges, manager for education abroad), Barat Alizade (head of Makropack company), Vafa Abbasli (Deputy director of Gadabay Secondary School No. 1 named after Ilham Aliyev, teacher of Azerbaijani language and literature), Ayshem Bashirova (host, reporter, editor at Azerbaijan Television JSC), Ilaha Tinasanova (department head at Baku Modern Education Complex), Arifa Mahmudova (Azerbaijan Language and Literature teacher and trainer at FZ Academy), and Aytaj Valiyeva (reporter and editor at ARB Media

Tədbirin əsas məqsədi məzunların eyni ixtisas üzrə təhsil alan birinci kurs tələbələri ilə öz uğur hekayələrini paylaşaraq, ixtisaslarına qarşı olan maraqlarını artırmaq idi.

Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva öz çıxışında məzunlarla təhsil müəssisəsi arasında davamlı əlaqələrin qurulmasının əhəmiyyətindən danışdı. Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova məzunlarla bağlı xatirələrini danışdı və Musa Yaqubun "Müəllim ömrü" şeirini səsləndirdi. Departamentin müəllimi Dr.. Reyhan Mədətova birinci kurs tələbələrinə öz tövsiyələrini verdi.



*Aytac Vəliyeva*

Məzunlar öz çıxışlarında tələbəlik illəri, müəllimlər və universitetlə bağlı unudulmaz anlarını xatırladılar. Uğurlu karyeraya sahib olmaq üçün nələrə diqqət yetirmək lazım olduğunu, şəxsi inkişafın əhəmiyyətini, xarici dil biliyinin önəmini vurğuladılar. Həmçinin, məzun Barat Əlizadə müəllifi olduğu "Xəyalpərəst" və "Kod adı: Oyanış" adlı kitablarını Xəzər Universitetinin kitabxanasına hədiyyə etdi.

Tədbirin sonunda xatirə şəkilləri çəkildi.

teachers, and university life. They emphasized what to focus on for a successful career, the importance of personal development, and the significance of foreign language skills. Additionally, alumnus Barat Alizade presented copies of his authored books "Dreamer" and "Code Name: Awakening" to the Khazar University library.

The event concluded with commemorative photos being taken.



*Vəfa Abbaslı*

Group, "Daily Telegraph" LLC). Some of their former university professors also participated.

The main goal of the event was for alumni to share their success stories with first-year students studying the same specialties, aiming to increase their interest in their fields of study.

Zarifa Aliyeva, director of the Career and Alumni Center, spoke about the importance of maintaining continuous connections between alumni and educational institutions. Assoc. Prof. Dilbar Zeynalova, head of the Department of Languages and Literature, shared memories about the alumni and recited Musa Yagub's poem "Teacher's Life". Dr. Reyhan Madatova, a department instructor, gave advice to first-year students.

In their speeches, the alumni recalled unforgettable moments from their student years,



*Arifə Mahmudova*

## İSAXAN İSAXANLI SERQEY YESENİNƏ HƏSR EDİLMİŞ TƏDBİRDƏ
## ISAXAN ISAXANLI AT THE EVENT DEDICATED TO SERGEI YESENIN

Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru, Dillər və Ədəbiyyatlar departamentinin professoru İsaxan İsaxanlı 2024-cü il oktyabrın 3-də Nizami Gəncəvi adına Milli Ədəbiyyat Muzeyində böyük rus şairi Serqey Yeseninin anadan olmasının 129 illiyinə həsr edilmiş "Serqey Yeseninin dünənki, bugünkü və gələcək dostları" adlı tədbirdə iştirak etdi.

Ədəbiyyat Muzeyinin direktoru, akademik Rafael Hüseynov öz çıxışında İsaxan İsaxanlının Yesenin araşdırmaları ilə bağlı ətraflı məlumat verdi, onun bu sahədə fəaliyyətini yüksək qiymətləndirdi. Tədbirdə İsaxan İsaxanlı "Serqey Yeseninin həyat və yaradıcılığında Bakı dövrünün yeri və rolu" mövzusunda məruzə etdi. Yeseninin Bakı dövrünə aid maraqlı və nadir şəkillərlə müşayiət edilən məruzə maraqla qarşılandı.

Sonda ədəbi hissə başladı, konsert proqramı baş tutdu. Proqramda məktəblilər Yeseninin şeirlərini söylədilər, Azərbaycan dilinə tərcümələrini oxudular. Oxunan tərcümələr arasında İsaxan İsaxanlının Yeseninin "Anama məktub" şeirinin tərcüməsi də vardı; şeir Xəzər rayonunun məktəblilərinin ifasında səsləndi.

Isaxan Isaxanli, Vice-Rector for Management and Student Affairs at Khazar University and Professor of the Department of Languages and Literature, participated in an event titled "Sergei Yesenin's Past, Present and Future Friends" dedicated to the 129th anniversary of the birth of great Russian poet Sergei Yesenin at the National Museum of Literature named after Nizami Ganjavi on October 3, 2024.

The Director of the Literature Museum, academician Rafael Huseynov, provided detailed information about Isaxan Isaxanli's research on Yesenin in his speech and highly appreciated his work in this field. At the event, Isaxan Isaxanli delivered a presentation on "The Place and Role of the Baku Period in Sergei Yesenin's Life and Works." The presentation, accompanied by interesting and rare photos from Yesenin's Baku period, was well-received.

At the end, the literary section began, and a concert program was held. During the program, schoolchildren recited Yesenin's poems and read their Azerbaijani translations. Among the translations read was Isaxan Isaxanli's translation of Yesenin's poem "Letter to Mother," which was performed by schoolchildren from the Khazar district.

## TƏLƏBƏLƏR FOLKLOR ELMİ TƏDQİQAT TƏCRÜBƏSİNDƏ
## STUDENTS AT FOLKLORE SCIENTIFIC RESEARCH INTERNSHIP

Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə IV kurs tələbələri 2024-2025-ci tədris ilinin payız semestri çərçivəsində AMEA Folklor İnstitutunda Folklor elmi tədqiqat təcrübəsinə başlayıblar. Təcrübə tələbələrin tədris prosesində əldə etdikləri nəzəri biliklərin müasir elmi yanaşmalar kontekstində tətbiqi, onlarda tədqiqatçılıq qabiliyyətlərinin formalaşdırılması məqsədilə həyata keçirilir.

Təcrübəyə rəhbərlik edən AMEA Rəyasət Heyətinin elmi katibi Dos. Hikmət Quliyev tələbələri AMEA Folklor İnstitutunun direktoru vəzifəsini icra edən, filologiya üzrə fəlsəfə doktoru, Dos. Afaq Ramazanovaya təqdim etdi. Görüşdə Folklor İnstitutunda aparılan elmi tədqiqat işləri, əldə olunan mühüm nailiyyətlər, dövri nəşrlər barədə geniş məlumat verildi, son dövrlərdə nəşr olunan elmi monoqrafiyalar və yeni toplanılmış folklor örnəklərindən ibarət kitablardan söz açıldı.

Qeyd edək ki, tələbələrin elmi tədqiqat təcrübəsi dekabr ayının sonunda başa çatacaq.

Fourth-year students majoring in Philology (Azerbaijani Language and Literature) at the School of Humanities, Education and Social Sciences of Khazar University have started their Folklore Scientific Research Internship at the Institute of Folklore of ANAS (Azerbaijan National Academy of Sciences) for the fall semester of the 2024-2025 academic year. The internship aims to apply the theoretical knowledge gained by students during their educational process in the context of modern scientific approaches and to develop their research skills.

Assoc. Prof. Hikmat Guliyev, the scientific secretary of the Presidium of ANAS, who supervises the internship, introduced the students to Assoc. Prof. Afag Ramazanova, Ph.D. in Philology, acting director of the Institute of Folklore of ANAS. During the meeting, extensive information was provided about the scientific research carried out at the Institute of Folklore, significant achievements, and periodicals. Recently published scientific monographs and books containing newly collected folklore samples were also discussed. It should be noted that the students' scientific research internship will conclude at the end of December.

# DEPARTAMENT MÜDİRLƏRİ BEYNƏLXALQ KONFRANSDA

# DEPARTMENT HEADS AT INTERNATIONAL CONFERENCE

Oktyabrın 3-də Naxçıvanda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə universitetdə "Naxçıvan müqaviləsinin 15-ci ildönümündə Türk Dövlətləri Təşkilatı" mövzusunda konfrans keçirilib. Konfransda Azərbaycan, Türkiyə, Macarıstan, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan alim və mütəxəssislər



*Telman Nüsrətoğlu*

iştirak etmişlər.

Konfrans Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin, BMTB İdarə Heyətinin sədri Dr. Fərid Şafiyevin, Naxçıvan Dövlət Universitetinin rektoru Dos. Elbrus İsayevin, Türk Dövlətləri Təşkilatı Baş katibinin nümayəndəsi Muradcan Mustafayevin açılış nitqləri ilə öz işinə başlamışdır. Çıxışçılar Türk Dövlətlər Təşkilatı nəzdində səmərəli və işlək sistemin inşasının əhəmiyyətindən danışıblar.

Tədbir "Türk Dövlətləri Təşkilatı coğrafiyasında geosiyasi dəyişikliklər və Türk Dövlətləri Təşkilatı", "Təhlükəsizlik sahəsində əməkdaşlıq", "İqtisadi və ticarət əlaqələri" və "Enerji və nəqliyyat sahəsində əməkdaşlıq" mövzularında panel iclasları ilə davam edib.

Tədbirdə Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu "İqlim böhranları şəraitində İpəkyolu coğrafiyasının təhlükəsizlik və sabitliyinin qorunmasında Türk dövlətlərinin rolu", Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev "Türk Dövlətləri Təşkilatı və milli birlik: ideyadan reallığa" mövzularında məruzə ediblər.

On October 3, a conference titled "Organization of Turkic States on the 15th Anniversary of the Nakhchivan Agreement" was held at Nakhchivan State University, jointly organized by the Center for Analysis of International Relations (AIR Center) and Nakhchivan State University. Scientists and experts from Azerbaijan, Turkey, Hungary, Kazakhstan, Kyrgyzstan and Uzbekistan participated in the conference.



*İbn Haldun Üniversiteti Heydər Əliyev Avrasiya Araşdırmaları Mərkəzinin müdiri Yaşar Sarı, Orxan Vəliyev*

The conference began with opening speeches by Fuad Najafli, the authorized representative of the President of the Republic of Azerbaijan in the Nakhchivan Autonomous Republic; Dr. Farid Shafiyev, Chairman of the Board of the AIR Center; Assoc. Prof. Elbrus Isayev, Rector of Nakhchivan State University; and Muradjan Mustafayev, representative of the Secretary General of the Organization of Turkic States. The speakers emphasized the importance of building an effective and functional system within the Organization of Turkic States.

The event continued with panel sessions on "Geopolitical changes in the geography of the Organization of Turkic States and the Organization of Turkic States," "Cooperation in the Field of Security," "Economic and Trade Relations," and "Cooperation in Energy and Transport."

At the event, Assoc. Prof. Telman Nusratoglu, Head of the History and Archaeology Department at Khazar University, delivered a report on "The Role of Turkic States in Preserving Security and Stability of the Silk Road Geography in Climate Crisis Conditions", and Assoc. Prof. Orkhan Valiyev, Head of the Political Science and Philosophy Department, presented on the topic "Organization of Turkic States and National Unity: From Idea to Reality".

## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



*Ədəbiyyat institutunun direktor müavini Mehman Həsənli, Mədəniyyət nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Akif Marifli, Ədəbiyyat institutunun elmi katibi Aygün Bağırlı*

# ƏDƏBİYYAT İNSTİTUTU BEYNƏLXALQ KİTAB SƏRGİSİNDƏ MÜKAFATLANDIRILIB

Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunmuş 10-cu Bakı Beynəlxalq kitab sərgisi yekunlaşıb. Bir həftə davam edən kitab sərgisinin bağlanış mərasimində müxtəlif nominasiyalar üzrə təltiflər təqdim edilib. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu sərginin "Ən yaxşı kitab" nominasiyası üzrə qalib olub. İnstitutun nəşr etdiyi "Füzuli kitabxanası" seriyası 10-cu Beynəlxalq Bakı kitab sərgisinin "Ən yaxşı kitab"ı seçilib.

Xatırladaq ki, "Füzuli kitabxanası" seriyası Ədəbiyyat İnstitutunda akademik İsa Həbibbəylinin baş redaktorluğu, tanınmış füzulişünas alim, filologiya elmləri doktoru Ataəmi Mirzəyevin məsul redaktorluğu ilə yaradılıb. "Füzuli kitabxanası" seriyasından Mir Cəlal Paşayevin "Füzuli sənətkarlığı", Həmid Araslının "Böyük Azərbaycan şairi Füzuli", Məmməd Cəfər Cəfərovun "Füzuli düşünür", Ataəmi Mirzəyevin "Füzulinin "Tərcümeyi-hədisi-ərbəin" əsəri", Stanislava Plyaskovitska-Rımkeviçin "Məhəmməd Süleyman oğlu Füzuli", Aynur Mahmudun "Füzuli ədəbi məktəbi (XVI-XVIII əsrlər)", Sevinc Ağayevanın "Məhəmməd Füzulinin anadilli divanının leksik tərkibi: Azərbaycan mənşəli arxaizmlər" və Mehriban Mövlamovanın "Azərbaycan ədəbiyyatında Məhəmməd Füzuli obrazı" kitabları nəşr olunub.

# XALQ YAZIÇISI İLYAS ƏFƏNDİYEVİN 110 İLLİYİ



Ədəbiyyat İnstitutunda Xalq yazıçısı İlyas Əfəndiyevin 110 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Xalq yazıçısı Elçin və millət vəkili Günay Əfəndiyeva, Qırğızıstandan gəlmiş ziyalılar, media mənsubları iştirak ediblər. Əvvəlcə yazıçının əsərlərindən və haqqında yazılmış kitablardan ibarət sərgiyə baxış olub.

Tədbiri giriş sözü ilə AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli açıb. Çıxışında vurğulayıb ki, İlyas Əfəndiyev sovet dövründə yaşayan, amma mümkün olduqca həmin ideologiyadan kənarda duran, qalan ədəbiyyat yaradıb. O sovet dövründə yaşasa da, ümummilli ədəbiyyat yaradaraq, xalqa onun ideallarına həsr olunan əsərlər yazmağın mümkünlüyünü isbat edib. Hesab edirəm ki, sovet dövründə Azərbaycanda lirik-psixoloji nəsrin ən böyük ustadı İlyas Əfəndiyevdir – deyən akademik onun "Söyüdlü arx", "Bahar suları" kimi əsərlərindən başlanan bu üslubun inkişaf edərək "Sarıköynəklə Valehin nağılı"na qədər davam etdiyini xatırladıb.

"İlyas Əfəndiyevin yaradıcılığından danışanda onun dramaturgiyasını ayrıca qeyd etməmək mümkün deyil" – söyləyərək bildirib ki, o, lirik-psixoloji teatrın və dramaturgiyanın da yaradıcısıdır. İlyas Əfəndiyevin teatrı lirik-psixoloji üslubda olan, insanın iç dünyasını cəmiyyətə təqdim edən fərqli teatr idi. İlyas Əfəndiyev xüsusən 1960-1980-ci illərdəki əsərləri ilə Azərbaycan xalqının ideologiyadan kənar, amma milli ideallara, gerçək həyata yönəldilmiş bir ədəbiyyatı xalqa verməklə onun gələcək müstəqilliyinə hazırlaşmasına kömək edib. Xüsusən də "Natəvan" və "Xiyabani" pyeslərindəki azərbaycançılıq idealları İlyas Əfəndiyevin dövlət müstəqilliyi təfəkküründə yeni nəslin yetişməsində xidmətlərini aydın şəkildə ifadə edir. Onun əsərləri, istər janrına və mövzusuna, istərsə də qəhrəmanlarına görə də yeni olur. Həm sənətkarlıq, həm də mövzu və ideya cəhətdən bənzərsiz və əhəmiyyətli yazıçıdır. Ona görə də onu daim öyrənirik – deyə akademik İsa Həbibbəyli çıxışını yekunlaşdırıb.

Tədbirdə filologiya elmləri doktorları Asif Rüstəmli "İlyas Əfəndiyev yaradıcılığı Yaşar Qarayevin dəyərləndirmə müstəvisində", Vaqif Yusifli "İlyas Əfəndiyevi xatırlayarkən", Sara Osmanlı "Yazıçı tənqidinin meyarları" və böyük elmi işçi Dilarə Adilova "İlyas Əfəndiyevin romanlarında müasirlik" mövzularında məruzələr ediblər.

Çingiz Aytmatov adına Dil və Ədəbiyyat İnstitutunun (Qırğızıstan) direktoru akademik Abdıldacan Akmatalıyev çıxışında bildirib ki, Qırğızıstanda Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrinin əsərləri tərcümə olunaraq geniş oxucu kütləsinə çatdırılıb. İlyas Əfəndiyevin üç romanının qırğız dilinə tərcümə olunaraq nəşr edildiyini və böyük maraqla qarşılandığını bildirib.

Tədbirin sonnda Xalq yazıçısı Elçin atası haqqında danışaraq vurğulayıb ki, onun əsərləri bu gün heç bir dəyişikliyə məruz qalmadan oxuculara alın açıqlığı ilə təqdim olunur tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirib.

**Gülnar Səma**
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*



# KÜTAHYA DUMLUPINAR UNİVERSİTETİNDƏ BİR SEMESTR

Mən - Xanımbacı Seyidəmirova Humanitar, təhsil və sosial elmlər fakültəsinin İbtidai sinif müəllimliyi ixtisası üzrə 4-cü kurs tələbəsiyəm.

Kütahya Dumlupınar Universitetində tamamladığım Erasmus+ mübadilə proqramı mənim üçün çox dəyərli təcrübə oldu. Türkiyənin ən qabaqcıl dövlət universitetlərindən biri olan bu universitet sərfəli təhsil haqları və müxtəlif tədris fənləri sayəsində bir çox xarici tələbəni cəlb edir. Universitetin xüsusilə yüksək qiymətləndirdiyim xüsusiyyətlərindən biri fakültə və işçi heyətinin xarici tələbələrə qarşı səmimi və dəstəkləyici yanaşması idi.

İştirak etdiyim kurslar arasında "Türk təhsil sistemi" kursunu xüsusilə maraqlı hesab etdim. Qiymətləndirmə və dəyərləndirmə metodları haqqında məlumat aldım. Azyaşlılara elmin necə tədris ediləcəyini öyrəndim, eləcə də müxtəlif tədris strategiyaları və metodologiyalarını kəşf etdim.

Mübadilə müddətində, həmçinin, könüllü olaraq II Beynəlxalq Kadrlar Həftəsində iştirak etmək imkanı əldə etdim. Burada müxtəlif beynəlxalq universitetlərin nümayəndələri öz təhsil müəssisələrini təqdim etdilər. İştirakçılar arasında Xəzər Universiteti də var idi və mən universitetin Təhsil departamentinin koordinatoru Leyla Əliyeva ilə tanış oldum.

Yaddaqalan təcrübələrdən biri türkcə bilməyən italiyalı bir tələbəyə tərcüməçilik etməyim oldu. Beynəlxalq ofisin xahişi ilə ona kömək etdim və bu, dəyərli dostluq qurmağıma imkan yaratdı.

Kütahya şəhəri, kiçik olmasına baxmayaraq, tarixi və mədəni irsi ilə tanınır. Bu gözəl şəhərdə keçirdiyim vaxtdan çox zövq aldım.

Erasmus+ kimi proqramlarda iştirak etmək problem həlletmə bacarıqlarını inkişaf etdirməyə və çətin vəziyyətlərdə özünə inam hissini artırmağa kömək edir.

**Xanımbacı Seyidəmirova**

# ONE SEMESTER AT KÜTAHYA DUMLUPINAR UNIVERSITY

I am Khanimbaji Seyidamirova, a 4th-year student in the Primary School Teaching specialty at the School of Humanities, Education, and Social Sciences.

The Erasmus+ Exchange program was an invaluable experience for me, which I completed at Kütahya Dumlupınar University. This university is one of the leading public universities in Türkiye, attracting many international students due to its affordable tuition fees and diverse range of academic disciplines. One aspect of the university I particularly appreciated was the warm and supportive approach of the faculty and staff toward foreign students.

Among the courses I attended, I found the "Turkish Education System" particularly compelling. I gained insights into assessment and evaluation methods, learned how to teach science to children, and explored various teaching strategies and methodologies.

During my exchange, I also had the opportunity to voluntarily participate in the II International Staff Week, where representatives from various international universities introduced their institutions. Among the participants was Khazar University, and I had the pleasure of meeting Leyla Aliyeva, the coordinator of Khazar University's Department of Education.

One memorable experience was serving as an interpreter for an Italian student who could not speak Turkish. At the request of the International Office, I assisted them, which allowed me to form a meaningful friendship.

The city of Kütahya, although small, is steeped in history and known for its cultural heritage. I thoroughly enjoyed my time in this unique city.

Participating in programs like Erasmus+ helps to develop critical problem-solving skills and fosters a sense of self-confidence in challenging situations.

**Khanımbajı Seyidamirova**



## POLŞADA "ERASMUS+" TƏCRÜBƏM

Dzień dobry! Sabahınız xeyir!

Mən, Zöhrə Məmmədova Humanitar, təhsil və sosial elmlər fakültəsinin Politologiya ixtisası üzrə 3-cü kurs tələbəsiyəm və mübadilə təcrübəmi sizinlə bölüşməkdən məmnunluq duyuram.

Mübadilə müddətim 2024-cü il fevralın 1-dən iyunun 30-dək Polşanın Vrotslav Universitetinin Sosial elmlər fakültəsinin Avropa Tədqiqat İnstitutunda baş tutdu.

"Erasmus+" proqramında əsas məqamlardan biri Avropa Parlamentinin Vrotslavdakı Əlaqələr Bürosunda canlı seçki debatlarında iştirak etməyim oldu. Avropa Parlamentinin Əlaqələr Bürosunun direktoru Stiven Klark ilə görüşdüm və Avropanın siyasi sistemləri haqqında əlavə biliklər əldə etdim.

Səylərimin qiymətləndirilməsi kimi, "Polşa haqqında məlumatlar: Mədəni diplomatiya təcrübədə" təhsil təşəbbüsünü uğurla başa vurduğuma görə mənə sertifikat təqdim olundu. "Erasmus+" şəxsi inkişafıma da töhfə verdi. Müxtəlif sosial tədbirlərdə, o cümlədən "Erasmus" axşamlarında iştirak etdim, burada müxtəlif ölkələrdən olan tələbələrlə cəmiyyət və mənəvi yaxınlıq hissini inkişaf etdirdim. Bu qarşılıqlı əlaqələr dil bacarıqlarımı təkmilləşdirməklə yanaşı, mənə dəyərli xarici dostlar və həmkarlar şəbəkəsi yaratmağa imkan verdi.

Polşa zəngin tarixə və mədəniyyətə malik ölkədir. Müxtəlif tarixi şəhərləri və görməli yerləri, habelə Avropanın ən böyük zooparkı və Vrotslavdakı ən böyük botanika bağını gəzdim.

Osvensim Holokost abidəsini görmək məndə dərin iz qoydu və tarixi yaddaşın əhəmiyyətini bir daha təsdiq etdi. Mübadilə proqramı ərzində çoxlu xatirələr, təcrübələr qazandım, mədəni biliklərimi zənginləşdirdim, peşəkar və şəxsi bacarıqlarımı inkişaf etdirdim. Buna görə Xəzər Universitetinə son dərəcə minnətdaram və digər tələbələri "Erasmus+" proqramının təklif etdiyi tədris və təcrübədən yararlanmağa təşviq edirəm

**Zöhrə Məmmədova**

## MY "ERASMUS+" EXPERIENCE IN POLAND

Dzień dobry! Good morning!

I am Zohra Mammadova, a 3rd-year student in Political Science at the School of Humanities, Education, and Social Sciences, and I am delighted to share my exchange experience with you!

My exchange period took place from February 1st to June 30th, 2024, at the European Research Institute of the Faculty of Social Sciences at Wrocław University in Poland.

One of the key highlights of the "Erasmus+" program was my participation in live election debates at the European Parliament's Liaison Office in Wrocław. I had the opportunity to meet with Steven Clark, the director of the European Parliament's Liaison Office, and gain additional knowledge about European political systems.

As an acknowledgment of my efforts, I was awarded a certificate for successfully completing the educational initiative "Information about Poland: Cultural Diplomacy in Practice". The "Erasmus+" program also contributed to my personal development. I participated in various social events, including "Erasmus" evenings, where I developed a sense of community and moral closeness with students from different countries. These interactions not only improved my language skills but also allowed me to create a valuable network of international friends and colleagues.

Poland is a country with a rich history and culture. I explored various historic cities and sights, including Europe's largest zoo and the largest botanical garden in Wrocław.

Visiting the Auschwitz Holocaust Memorial left a profound impression on me and once again confirmed the importance of historical memory.

During the exchange program, I gained numerous memories and experiences, enriched my cultural knowledge, and developed my professional and personal skills. I am extremely grateful to Khazar University and encourage other students to take advantage of the learning and experience offered by the "Erasmus+" program.

Would you like me to elaborate on any part of the text or provide additional context?

**Zohra Mammadova**



*İradə Xəlilova*



## UNİVERSİTETƏ YENİ QƏBUL OLUNMUŞ ƏCNƏBİ TƏLƏBƏLƏR ÜÇÜN MƏLUMATLANDIRMA GÜNÜ

## ORIENTATION DAY FOR NEWLY ADMITTED INTERNATIONAL STUDENTS

Oktyabrın 4-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsi universitetə yeni qəbul olunmuş əcnəbi tələbələr üçün məlumatlandırma günü keçirdi. Tədbir zamanı yeni tələbələr qayda və prosedurlar barədə məlumat, habelə, Azərbaycanda yaşamaq üçün faydalı tövsiyələr əldə etdilər.

Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyevanın tələbələri salamlaması və on-

On October 4, the International Relations Department of Khazar University held an orientation day for newly admitted international students. During the event, new students were informed about rules and procedures, as well as useful advice for living in Azerbaijan.

The event began with welcoming remarks from Assoc. Prof. Irada Khalilova, Rector of Khazar University, and Fatima Valiyeva, Head of the In-







lara universitet həyatında uğurlar arzulaması ilə başlanan tədbirdə İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekan vəzifəsini icra edən Günel Bahəddinova, Təbiət elmləri və mühəndislik fakültəsinin Tələbə işləri üzrə dekan müavini Vəfa Aslanova, İqtisadiyyat və menecment fakültəsinin dekan vəzifəsini icra edən Xanım Nəbiyeva, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan vəzifəsini icra edən Aygün Verdiyeva əcnəbi tələbələrə tədris prosesinə aid zəruri məlumatlar verdilər. Sonra yeni tələbələr auditoriya qarşısında özlərini təqdim etdilər və bir-birləri ilə tanış oldular.

Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva tərəfindən tələbələrə Xəzər Universiteti haqqında təqdimat nümayiş etdirildi, şöbənin koordinatoru İlqarə Abdullayeva tələbələri Azərbaycan və mədəniyyəti, əlavə olaraq miqrasiya məsələləri haqqında məlumatlandırdı. Xəzər Universitetində Erasmus Tələbə Şəbəkəsi Avropa layihəsinin Təşəbbüskar Komandası - Əcnəbi Tələbələr Klubunun prezidenti Alisa Nazirzadə, vitse-prezidenti Aduagba Yahaya Abdullahi tələbələrə Erasmus proqramı, Debat, KuTalks, Musiqi, İqtisadiyyat klubları isə öz klubları barəsində ətraflı məlumat verdilər.

Universitetdə artıq təhsil alan əcnəbi tələbələr də öz təcrübələrini, Azərbaycan haqqında biliklərini yeni tələbələrlə bölüşdülər.

ternational Relations Department, who wished the students success in their university life. Ingilab Ahmadov, Dean of the Graduate School of Economics and Business; Gunel Bahaddinova, Acting Dean of the Graduate School of Science, Art, and Technology; Vafa Aslanova, Deputy Dean for Student Affairs of the School of Natural Sciences and Engineering; Khanim Nabiyeva, Acting Dean of the Faculty of Economics and Management; and Aygun Verdiyeva, Acting Dean of the School of Humanities, Education, and Social Sciences, provided essential information about the educational process to the international students. Afterwards, the new students introduced themselves to the audience and got acquainted with each other.

Fatima Valiyeva, Head of the International Relations Department, delivered a presentation about Khazar University, while Ilgara Abdullayeva, the department's coordinator, informed students about Azerbaijan, its culture, as well as migration issues. Alisa Nazirzade, President of the Khazar ESN Initiative Group - International Students' Club at Khazar University, and Vice President Aduagba Yahaya Abdullahi provided detailed information about the Erasmus program, while the Debate, KuTalks, Music, and Economics clubs shared information about their respective clubs.

International students already studying at the university also shared their experiences and knowledge about Azerbaijan with the new students.

# XƏZƏR UNİVERSİTETİNİN KİTABXANA İNFORMASİYA MƏRKƏZİNİN ƏMƏKDAŞLARI VƏ TƏLƏBƏLƏRİ X BAKI BEYNƏLXALQ KİTAB SƏRGİSİNDƏ

# KHAZAR UNIVERSITY LIBRARY INFORMATION CENTER STAFF AND STUDENTS ATTEND 10TH BAKU INTERNATIONAL BOOK FAIR



*Aytac Misgərli, Samirə Orucova*

Oktyabrın 4-də Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzinin əməkdaşları və tələbələri Bakı Ekspo Mərkəzində keçirilən (2-8 oktyabr) X Bakı Beynəlxalq Kitab Sərgisində iştirak etdilər. 10-cu yubiley sərgisi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinə həsr olunub.

Sərgidə Azərbaycanla yanaşı Türkiyə, İtaliya, Çin, Rusiya, Macarıstan, Almaniya, Qətər, Qazaxıstan, Meksika və digər ölkələrin nümayəndələri də iştirak edirdilər.

Sərgidə uşaqlar və böyüklər üçün ustad dərsləri, müsabiqələr, kitab təqdimatları, imza günləri, musiqi saatları keçirilirdi.

On October 4, staff of Khazar University's Library Information Center, as well as students, participated in the 10th Baku International Book Fair held at the Baku Expo Center (October 2-8). The 10th anniversary exhibition is dedicated to the 530th birthday of Azerbaijani poet and thinker Muhammad Fuzuli.

Alongside Azerbaijan, representatives from Turkey, Italy, China, Russia, Hungary, Germany, Qatar, Kazakhstan, Mexico, and other countries took part in the fair.

The exhibition featured master classes, competitions, book presentations, autograph sessions, and music hours for both children and adults.





RİİB Regional İnkişaf İctimai Birliyi

# UNİVERSİTETİN ƏMƏKDAŞLARI NEFTÇALADA KEÇİRİLMİŞ BEYNƏLXALQ ELMİ KONFRANSDA

# KHAZAR UNIVERSITY STAFF MEMBERS AT THE INTERNATIONAL SCIENTIFIC CONFERENCE IN NEFTCHALA




Oktyabrın 5-də "Regional İnkişaf" İctimai Birliyi və Neftçala rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "AZLİNG 2024 - Azərbaycan dili və müasir dilçilik: problemlər, perspektivlər və çağırışlar" mövzusunda ənənəvi beynəlxalq elmi konfrans keçirilmişdir. Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 1 noyabr 2018-ci il tarixli Fərmanına uyğun olaraq bu il dördüncü dəfə təşkil olunan konfransda Azərbaycanın tanınmış dilçi alimləri ilə yanaşı, ümumilikdə 100-dən çox yerli və xarici gənc tədqiqatçılar də məruzə ilə çıxış ediblər.

Konfransda Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentin tərcümə müəllimi və "Tərcümə Mərkəzi"nin koordinatoru Dr. Elvin Abbasbəyli "Şifahi tərcümənin dünəni, bugünü və sabahı: Azərbaycandakı vəziyyət" haqqında məruzə ilə çıxış edib, iştirakçıların suallarını cavablandırıb. Konfrans zamanı 2023-cü ildə keçirilmiş konfransın məqalələr toplusunun təqdimatı da keçirilib. Bu topluda Dr. Elvin Abbasbəylinin "Azərbaycan ədəbiyyatının fransız dilinə tərcüməsinin müasir vəziyyəti və qarşıya çıxan tərcümə problemləri" adlı məqaləsi çap olunub. Konfransda Dillər və ədəbiyyatlar departamentinin müəllimləri - filologiya üzrə fəlsəfə doktorları Rasim Heydərov, Reyhan Mədətova və İlkin Əsgərov da iştirak ediblər. Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

On October 5, an international scientific conference titled "AZLING 2024 - Azerbaijani language and modern linguistics: problems, perspectives, and challenges" took place in the Neftchala district, organized by the "Regional Development" Public Union and Neftchala district Heydar Aliyev Center.

Commemorating the 100th anniversary of National Leader Heydar Aliyev, the conference, initiated by linguist scientists from Neftchala, featured presentations from 85 scholars representing various Azerbaijani higher education and science institutions, along with participants from various international universities, addressing current linguistic issues.

Notable contributions at the conference included presentations by Dr. Elvin Abbasbeyli, the coordinator of the Khazar University Center of Translation and Interpretation (CTI), as well as members of the University's Department of Languages and Literatures - PhDs in Philology Reyhan Madatova, Ilkin Askerov, Rasim Heydarov, Zamina Ziyayeva, Sevinj Gambarova, and lecturer Mansura Ahmadova. Additionally, graduate students delivered their reports.

The conference concluded with the participants receiving international certificates.

## HÜSEYN CAVİDİN EV MUZEYİNDƏ "AZƏRBAYCAN ƏDƏBİYYATINDA ROMANTİZM MƏRHƏLƏSİ" MÖVZUSUNDA SEMİNAR

## SEMINAR ON "THE ROMANTIC PERIOD IN AZERBAIJANI LITERATURE" AT HUSEYN JAVID'S HOUSE MUSEUM

Oktyabrın 7-də Hüseyn Cavidin ev muzeyində Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dos. Xatirə Yusifova tərəfindən "Azərbaycan ədəbiyyatında romantizm mərhələsi" mövzusunda seminar keçirilmişdir. Seminarda Humanitar, təhsil və sosial elmlər fakültəsində Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə təhsil alan 3-cü kurs tələbələri də iştirak etmişdir. Tələbələrə ədəbi hadisə olan Azərbaycan romantizminin tipologiyası, onun ayrı-ayrı nümayəndələrinin bədii təcrübəsi haqqında geniş məlumat verilmişdir.

On October 7, a seminar on "The Romantic Period in Azerbaijani Literature" was held at Huseyn Javid's House Museum by Assoc. Prof. Khatira Yusifova, an instructor from the Department of Languages and Literature at Khazar University. Third-year students majoring in Azerbaijani Language and Literature Teaching from the School of Humanities, Education and Social Sciences also participated in the seminar. The students were provided with extensive information about the typology of Azerbaijani romanticism as a literary phenomenon and the artistic experiences of its individual representatives.

## "BƏRPA OLUNAN ENERJİ VƏ AĞILLI ŞƏBƏKƏ İNTEQRASİYASI" MÖVZUSUNDA SEMİNAR

## SEMINAR ON "RENEWABLE ENERGY AND SMART GRID INTEGRATION"




*Alim Hüseynov, departament müdiri Fəridə Tatardar*

Oktyabrın 8-də Fizika və elektronika departamentində COP 29 və Yaşıl dünya naminə həmrəylik ili tədbirləri çərçivəsində departamentin müəllimi Alim Hüseynov tərəfindən "Bərpa

On October 8, a seminar on "Renewable Energy and Smart Grid Integration" was held at the Department of Physics and Electronics as part of the COP 29 and Green World

olunan enerji və ağıllı şəbəkə inteqrasiyası" mövzusunda seminar keçirildi. Seminarda universitetin müəllim və tələbələri iştirak edirdilər.

Alim Hüseynov hal-hazırda mövcud olan alternativ enerji mənbələri haqqında məlumat verdi və Azərbaycanda bu enerji mənbələrinin işləmə prinsipinin necə olduğunu izah etdi. Seminar müzakirə şəklində aparıldı və böyük marağa səbəb oldu.

Solidarity Year events. The seminar was conducted by Alim Huseynov, a teacher of the department. University faculty and students participated in the seminar.

Alim Huseynov provided information about currently existing alternative energy sources and explained how these energy sources operate in Azerbaijan. The seminar was conducted in a discussion format and attracted great interest.

## TƏLƏBƏLƏR HƏSƏN BƏY ZƏRDABİ ADINA TƏBİƏT TARİXİ VƏ MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYLƏRİNDƏ

## STUDENTS VISIT NATURAL HISTORY MUSEUM NAMED AFTER HASAN BEY ZARDABI AND NATIONAL MUSEUM OF HISTORY OF AZERBAIJAN

Humanitar, təhsil və sosial elmlər fakültəsinin Tarix müəllimliyi ixtisasında təhsil alan I kurs tələbələri oktyabrın 10-da Tarix və arxeologiya departamentinin müəllimi Orxan Zamanovun təşkilatçılığı ilə Həsən bəy Zərdabi adına Təbiət Tarixi və Milli Azərbaycan Tarixi Muzeylərində olublar.

Ekskurs-dərs zamanı fənn müəllimi Orxan Zamanov tələbələrə Azərbaycanın nümunəsində hər iki muzeydə nümayiş olunan eksponatlar haqqında tədris materialı ilə əlaqəli və əhatəli məlumat vermişdir. Həmçinin, tələbələrlə nümunələr əsasında fikir mübadiləsi, onların öyrənilmə üsulları və dünyada yeri haqqında müzakirələr aparılmışdır.

On October 10, first-year students majoring in History Teaching at the School of Humanities, Education, and Social Sciences visited the Natural History Museum named after Hasan bey Zardabi and the National Museum of History of Azerbaijan. The visit was organized by Orkhan Zamanov, an instructor of the Department of History and Archaeology.

During the excursion-lesson, the subject instructor, Orkhan Zamanov, provided the students with comprehensive information related to the curriculum about the exhibits displayed in both museums, using Azerbaijan as an example. Additionally, discussions were held with the students based on examples, focusing on their studying methods and their place in the world.



# ARDNF-NİN ƏMƏKDAŞLARININ SEMİNARI

# SEMINAR BY SOFAZ EMPLOYEES





Ülviyyə Mehralıyeva



Oktyabrın 10-da Xəzər Universitetində Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı və İqtisadiyyat və menecment fakültəsinin dəstəyi ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) tərəfindən İqtisadiyyat və menecment fakültəsinin tələbələri üçün "Azərbaycanda dayanıqlı iqtisadi inkişafın təmin edilməsində ARDNF-nin rolu"

On October 10, a seminar titled "The Role of SOFAZ in Ensuring Sustainable Economic Development in Azerbaijan" was held at Khazar University for students of the School of Economics and Management. The event was organized by the Career and Alumni Center with the support of the School of Economics and Management and was con-



mövzusunda seminar keçirildi.

Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva qonaqları təqdim etdi və tədbirin mahiyyətindən söz açdı. İqtisadiyyat və menecment fakültəsinin dekan vəzifəsini icra edən Dr. Xanım Öməroğlu fakültə barədə ümumi məlumat verdi və fakültənin ARDNF ilə gələcək əməkdaşlığının önəmini vurğaladı.



*Kamran Əlizadə*

Tədbirdə ARDNF-nin Strateji kommunikasiya şöbəsinin müdiri Ülviyyə Mehralıyevanın “ARDNF-yə ümumi baxış”, İnvestisiya departamentinin baş treyderi Nəzrin Mansurlunun “ARDNF-nin investisiya istiqamətləri” və Enerji layihələri departamentinin aparıcı iqtisadçısı Kamran Əlizadənin “ARDNF-nin hasilatın pay bölgüsü sazişləri və strateji layihələr üzrə rolu” mövzularında çıxışları oldu.

Görüşdə tələbələr interaktiv iştirak edərək, məruzəçilərə müxtəlif suallar ünvanladılar.





*Nəzrin Mansurlu*

ducted by the State Oil Fund of the Republic of Azerbaijan (SOFAZ).

Zarifa Aliyeva, Director of the Career and Alumni Center, introduced the guests and spoke about the significance of the event. Dr. Khanim Omaroglu, Acting Dean of the School of Economics and Management, provided general information about the school and emphasized the importance of future collaboration between the school and SOFAZ.

The event featured presentations by SOFAZ representatives: Ulviyya Mehraliyeva, Head of the Strategic Communication Department, on "An Overview of SOFAZ"; Nazrin Mansurlu, Chief Trader of the Investment Department, on "SOFAZ Investment Directions"; and Kamran Alizade, Leading Economist of the Energy Projects Department, on "SOFAZ's Role in Production Sharing Agreements and Strategic Projects."

Students actively participated in the meeting by asking various questions to the speakers.







*İradə Xəlilova*

## ELMİ ŞURANIN NÖVBƏTİ İCLASI

Oktyabrın 11-də Xəzər Universiteti Elmi Şurasının növbəti iclası keçirildi. İclası Xəzər Universitetin rektoru, Elmi Şuranın sədri Dos. İradə Xəlilova açaraq, gündəlikdəki məsələləri Elmi Şura üzvlərinin nəzərinə çatdırdı.

Sədr gündəliyin birinci məsələsi olan Xəzər Universitetinin Elmi Şurasının yeni tərkibi haqqında məlumat verdi. O qeyd etdi ki, Elmi Şuranın tərkibinə Xəzər Universitetindəki vəzifələrinə görə və fakültələrin təqdimatlarına əsasən cəmi yeddi nəfər yeni üzv daxil edilmişdir. Xəzər Universitetində fəaliyyətini dayandıran əməkdaşlar isə Elmi Şura üzvlüyündən çıxarılmışdır.

Gündəliyin 2-ci məsələsi olan məzunlar haqqında məlumatları Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, İqtisadiyyat və menecment fakültəsinin dekan vəzifəsini icra edən Xanım Öməroğlu, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan vəzifəsini icra edən Aygün Verdiyeva və İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov təqdim etdilər. Universitetin məzun olan bakalavriatura və magistratura tələbələrinin qiymətləri, ixtisasları və s. haqqında ətraflı məlumat dinlənildi və müzakirələr aparıldı.

Gündəliyin üçüncü məsələsi - 2024-2025-ci tədris ilində Xəzər Universitetinə qəbul haqqında rektor İradə Xəlilova məlumat verərək qeyd etdi ki, cari ildə hər üç təhsil səviyyəsi üzrə qəbulda keçən ilə nisbətən artım müşahidə olunmuşdur.

Gündəliyin dördüncü məsələsi olan Elmi Şuranın illik fəaliyyət planı haqqında rektor İradə Xəlilova

## NEXT MEETING OF THE SCIENTIFIC COUNCIL

The next meeting of the Scientific Council of Khazar University was held on October 11. The meeting was opened by Assoc. Prof. Irada Khalilova, Rector of Khazar University and Chairperson of the Scientific Council, who brought the agenda items to the attention of Scientific Council members.

The Chairperson provided information about the first agenda item regarding the new composition of Khazar University's Scientific Council. She noted that seven new members were added to the Scientific Council based on their positions at Khazar University and faculty nominations. Staff members who have ceased their activities at Khazar University were removed from Scientific Council membership.

For the second agenda item concerning graduates, information was presented by Fakhranda Afandiyeva, Dean of the School of Natural Sciences and Engineering; Khanim Omaroglu, Acting Dean of the School of Economics and Management; Aygun Verdiyeva, Acting Dean of the School of Humanities, Education and Social Sciences; and Ingilab Ahmadov, Dean of the School of Economics and Business. Detailed information about graduating bachelor's and master's students' grades, specializations, etc., was heard and discussed.

For the third agenda item, Rector Irada Khalilova reported on admissions to Khazar University for the 2024-2025 academic year, noting that there was an increase in admissions across all three education levels compared to the previous year.

For the fourth agenda item, Rector Irada Khalilova

məlumat verərək, 2024-2025-ci tədris ili ərzində müzakirəsi planlaşdırılan məsələləri Elmi Şura üzvlərinin nəzərinə çatdırdı.

Elmi Şuranın katibi Günel Bahəddinova gündəliyin beşinci məsələsi olan Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni qərarlarına əsasən Xəzər Universitetinin doktorantura əsasnaməsində edilən dəyişikliklər barədə və gündəliyin altıncı məsələsi olan dissertantın elmi rəhbərinin dəyişdirilməsi ilə bağlı məlumat verdi. Məsələlər Elmi Şura üzvləri tərəfindən müzakirə olundu və təkliflər irəli sürüldü.

Gündəliyin yeddinci məsələsi - Akkreditasiya Komissiyasının yekun hesabatında göstərilən tövsiyə və göstərişlərin icrasının təmin edilməsi məqsədilə Xəzər Universitetinin 2023/24 - 2027/28-ci tədris illəri üzrə fəaliyyət planı haqqında Keyfiyyətin Təminatı Mərkəzinin müdiri Lyudmila Sotova ətraflı məlumat verdi. Beşillik fəaliyyət planında qeyd olunan bütün məlumatlar Elmi Şura üzvləri tərəfindən müzakirə olunaraq, fəaliyyət planı təsdiq olundu.



*Xanım Ömərоğlu*

Sədr gündəliyin səkkizinci məsələsi olan departamentlərin illik fəaliyyətlərinin hesabatı haqqında məlumat vermək üçün departament rəhbərlərinə söz verdi. Riyaziyyat departamentinin müdiri Əli Hüseyinli, Dillər və ədəbiyyatlar departamentinin müdiri Dilbər Zeynalova və Memarlıq və dizayn departamentinin müdiri Şəhla Abbasova 2023-2024-cü tədris ilində departamentlərin fəaliyyəti haqqında ətraflı məlumat verdilər. Məsələ Elmi Şura üzvləri tərəfindən müzakirə olundu və hesabatlar qəbul olundu.

Elmi şuranın gündəliyindəki bütün məsələlər müzakirə olunaraq, müvafiq qərarlar qəbul edildi.



*Fəxrəndə Əfəndiyeva*

presented information about the Scientific Council's annual activity plan, bringing planned discussion topics for the 2024-2025 academic year to council members' attention.

Scientific Council Secretary Gunel Bahaddinova provided information about the fifth agenda item regarding changes made to Khazar University's doctoral regulations based on new decisions by the Cabinet of Ministers of the Republic of Azerbaijan, and the sixth agenda item concerning changing a dissertation supervisor. The matters were discussed by Scientific Council members and proposals were made.

For the seventh agenda item, Lyudmila Sotova, Director of the Quality Assurance Center, provided detailed information about Khazar University's action plan for 2023/24 - 2027/28 academic years to implement recommendations and instructions indicated in the Accreditation Commission's final report. All information noted in the five-year action plan was discussed by Scientific Council members and the action plan was approved.

For the eighth agenda item, the Chairperson gave the floor to department heads to report on their annual activities. Ali Huseyinli, Head of Mathematics Department; Dilbar Zeynalova, Head of Languages and Literature Department; and Shahla Abbasova, Head of Architecture and Design Department provided detailed information about their departments' activities during the 2023-2024 academic year. The matter was discussed by Scientific Council members and the reports were accepted.

All items on the Scientific Council's agenda were discussed and appropriate decisions were made.

## ERASMUS+ TƏLƏBƏ MÜBADİLƏSİ BARƏSİNDƏ MƏLUMAT SESSİYASI

Oktyabrın 11-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsi tərəfindən universitetin bakalavriat, magistratura və doktorantura tələbələri üçün Erasmus+ KA171 layihəsi çərçivəsində mübadilə proqramları barədə məlumat sessiyası təşkil edildi.

## INFORMATION SESSION ON ERASMUS+ STUDENT EXCHANGE

On October 11, the International Relations Office of Khazar University organized an information session about exchange programs within the Erasmus+ KA171 project for undergraduate, graduate, and doctoral students of the university.





Əli Mirzəzadə

Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Əli Mirzəzadə ümumi məlumat verərək, proqramda iştirak etmək üçün şərtlərdən, tələb olunan sənədlərdən və hal-hazırkı imkanlardan danışdı.

Sonra Erasmus+ Tələbə Mübadilə proqramı çərçivəsində Türkiyənin Kütahya Dumlupınar Universitetində mübadilə proqramında iştirak etmiş Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin 4-cü kurs tələbəsi Xanımbacı Seyidəmirova öz təcrübələrini tələbələrlə bölüşdü.

Sonda tələbələrin sualları cavablandırıldı.

Tədbirdə Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak etdi..

Ali Mirzazade, coordinator of the International Relations Office, provided general information, discussing the conditions for participation in the program, required documents, and current opportunities.

Then, Khanimbaji Seyidamirova, a 4th-year student from the School of Humanities, Education, and Social Sciences at Khazar University, who participated in the exchange program at Kütahya Dumlupınar University in Turkey under the Erasmus+ Student Exchange program, shared her experiences with the students.

At the end, students' questions were answered.

Fatima Valiyeva, head of the International Relations Office, attended the event.



# "YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ" VƏ "COP29"-A HƏSR OLUNMUŞ TƏDBİR

# EVENT DEDICATED TO "YEAR OF SOLIDARITY FOR A GREEN WORLD" AND "COP29"



*Dilbər Zeynalova, Hikmət Quliyev*

Oktyabrın 15-də Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə "Yaşıl Dünya Naminə Həmrəylik ili" və "COP29"-a həsr olunmuş dəyirmi masa keçirilib. Tədbirdə universitetin müəllimləri, bakalavr və magistratura pillələrində təhsil alan tələbələr iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Dillər və ədəbiyyatlar departamentin müdiri Dos. Dilbər Zeynalova Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə 2024-cü ilin "Yaşıl Dünya Naminə Həmrəylik İli" elan olunması və İqlim Dəyişiklikləri üzrə Tərəflər Konfransının – COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən danışıb. O vurğulayıb ki, qeyd olunan məsələlər bütün sahələr, o cümlədən humanitar və ictimai elmlərin də qarşısında mühüm vəzifələr müəyyənləşdirir.

Sonra Dos. Hikmət Quliyev "Folklorik düşüncə və ekoloji diskurs: "Dirilik suyu axtarışı"dan "Əbədi mühərrik" ideyasına" mövzusunda məruzə edib. Folklorşünas alim "texnologiya və mental dəyərlər", "insan-təbiət-mədəniyyət münasibətləri" haqqında danışıb. Qeyd edib ki, " "yaşıl" dünya çağırışları təkcə yaşadığımız dünyanın fiziki materiyasını deyil, həm də mənəvi aləmini əhatə etdiyindən burada sosial stereotiplər və inanclar üzərində formalaşan mental dəyərlərə xüsusi diqqət yetirmək lazımdır. Natiq "ekofolklor" və "ekolor" anlayışının kəsb etdiyi mənaları da xüsusi vurğulayıb.

Tədbirdə mövzu ilə bağlı müzakirələr aparılıb, suallar cavablandırılıb.

Sonda Dos. Hikmət Quliyev Xəzər Universitetinin sertifikatı ilə təltif olunub.

On a 15 a roundtable dedicated to the "Year of Solidarity for a Green World" and "COP29" was held, organized by the Department of Languages and Literatures at Khazar University. The event was attended by university professors and students studying at both undergraduate and graduate levels.

Opening the event, Assoc. Prof. Dilbar Zeynalova, head of the Department of Languages and Literatures, spoke about the significance of President Ilham Aliyev's decree declaring 2024 as the "Year of Solidarity for a Green World" and the hosting of the Conference of the Parties on Climate Change - COP29 in our country. She emphasized that these matters set important tasks for all fields, including humanities and social sciences.

Then, Assoc. Prof. Hikmat Guliyev presented a report on "Folkloric Thinking and Ecological Discourse: From the 'Search for the Water of Life' to the Idea of 'Perpetual Motion.'" The folklorist scholar discussed "technology and mental values" and "human-nature-culture relationships." He noted that since "green" world calls encompass not only the physical matter of our world but also its spiritual realm, special attention should be paid to mental values formed on social stereotypes and beliefs. The speaker also emphasized the meanings of the concepts "ecofolklore" and "ecolore."

The event included discussions on the topic, and questions were answered.

At the end, Assoc. Prof. Hikmat Guliyev was awarded a certificate from Khazar University.



*Mirsadiq Muxtarov*

# "MADDƏ ASILILIĞINA BİOPSİXOSOSİAL YANAŞMA" MÖVZUSUNDA SEMİNAR

# SEMINAR ON "BIOPSYCHOSOCIAL APPROACH TO SUBSTANCE ADDICTION"

Oktyabrın 15-də Xəzər Universitetində Psixologiya departamenti və Psixologiya klubunun birgə əməkdaşlığı ilə təşkil olunan "Maddə asılılığına biopsixososial yanaşma" mövzusunda seminar keçirilmişdir. Seminar Xəzər Universitetinin Psixologiya departamentinin əməkdaşı və Xəzər Psixoloji Xidmət Mərkəzinin psixoloqu Mirsadiq Muxtarov tərəfindən aparılmışdır. Seminarın əsas məqsədi diqqəti dünyada geniş yayılmış maddə asılılığının zərərlərinə cəlb edərək, gənclər arasında geniş yayılmasına qarşı profilaktik addımın atılması idi.

Mirsadiq Muxtarov maddə asılılığı anlayışına toxunmuş, bu problemin fərqli amillərini, habelə bioloji, psixoloji və sosial faktorların təsirini izah etmişdir. Bununla yanaşı, seminar zamanı asılılığın yaranma səbəbləri, onun müalicə yolları və bu mövzuda müasir yanaşmalar geniş müzakirə olunmuşdur.

Seminarda maddə asılılığının yalnız bir insanın psixoloji problemi deyil, həmçinin cəmiyyətin müxtəlif səviyyələrinə təsir edən geniş miqyaslı bir məsələ olduğu qeyd edilmişdir. Onun klinik kriteriyalarına nəzər yetirilmiş, asılılığın müalicəsində fərqli terapiya növlərinin, həmçinin ailə və sosial dəstəyin əhəmiyyəti vurğulanmışdır. Tədbir tələbələrin marağına səbəb olmuş və onlar mövzu ətrafında geniş fikir mübadiləsi aparmışlar.

On October 15, a seminar on "Biopsychosocial Approach to Substance Addiction" was held at Khazar University, organized jointly by the Psychology Department and Psychology Club. The seminar was conducted by Mirsadiq Mukhtarov, a staff member of Khazar University's Psychology Department and psychologist at the Khazar Psychological Service Center. The main purpose of the seminar was to take a preventive step against the widespread occurrence of substance addiction among young people by drawing attention to the harmful effects of substance addiction, which is widespread globally.

Mirsadiq Mukhtarov addressed the concept of substance addiction, explaining the different factors of this problem, as well as the influence of biological, psychological, and social factors. Additionally, during the seminar, the causes of addiction, its treatment methods, and modern approaches to this topic were widely discussed.

The seminar emphasized that substance addiction is not just an individual's psychological problem but also a large-scale issue affecting various levels of society. Its clinical criteria were reviewed, and the importance of different types of therapy in addiction treatment, as well as family and social support, was emphasized. The event arouse interest among students, and they engaged in extensive discussions around the topic.



## ALBAN TARİXİNƏ DAİR SEMİNAR

Oktyabrın 16-da Xəzər Universitetində Tarix və Arxeologiya departamentinin və Humanitar, təhsil və sosial elmlər fakültəsinin (HTSE) təşkilatçılığı ilə AMEA Arxeologiya və Antropologiya İnstitutunun Elmi katibi, Dos. Ellada Bəkirovanın "Albanşünaslıq keçmişdə və günümüzdə: elmi-nəzəri problemlər ətrafında müzakirə" adlı seminarı keçirilmişdir. Seminarda Təhsil və sosial elmlər fakültəsinin dekan müavini Pərvin Kərimova, Tarix və arxeologiya departamentinin müəllimləri Dr. Yaqub Məmmədov, Dr. Nurlan Nəsirov, Tarix müəllimliyi və Tarix və coğrafiya müəllimliyi ixtisaslarında təhsil alan tələbələr iştirak etmişdir.

Məruzəçi Alban dövlətinin ərazisi, əhalisi, siyasi tarixi, dini inam, memarlıq abidələri və eləcə də mənbəşünaslığı və tarixşünaslığı haqqında geniş məlumat vermiş, albanşünaslığın əsas elmi-nəzəri problemləri haqqında fikirlərini bölüşmüşdür. Sonda müəllimləri və tələbələri düşündürən məsələlər ətrafında geniş müzakirə aparılmışdır.

## SEMINAR ON ALBANIAN HISTORY

A seminar titled "Albanology in the Past and Present: Discussion on Scientific-Theoretical Problems" was held at Khazar University on October 16, organized by the Department of History and Archaeology and the School of Humanities, Education and Social Sciences (HESS). The seminar was conducted by Associate Professor Ellada Bekirova, Scientific Secretary of the Institute of Archaeology and Anthropology of ANAS. The seminar was attended by Parvin Karimova, Deputy Dean of the School of Education and Social Sciences, Dr. Yagub Mammadov and Dr. Nurlan Nasirov from the Department of History and Archaeology, as well as students studying History Teaching and History and Geography Teaching. The speaker provided extensive information about the territory, population, political history, religious beliefs, architectural monuments, as well as source studying and historiography of the Albanian state, and shared her thoughts about the main scientific-theoretical problems of albanology. At the end, there was a broad discussion about issues that concerned both instructors and students.

## MEDİASİYA MÖVZUSUNDA DƏRS

Oktyabrın 16-da Xəzər Universitetində Psixologiya departamentinin təşkilatçılığı ilə 3-cü kurs psixologiya tələbələri üçün Mediasiya mövzusunda maarifləndirici dərs keçirilmişdir. Dərsə qonaq qismində mediasiya üzrə mütəxəssis Qasım Şalıyev dəvət olunmuşdur.

Dərsin məqsədi mediasiya prosesinin hüquq və psixologiya sahələrində necə tətbiq olunduğunu, münaqişələrin sülh yolu ilə həllində hansı rolu oynadığını tələbələrə ətraflı şəkildə izah etmək idi. Qasım Şalıyev mediasiyanın yalnız hüquqi deyil, həmçinin psixoloji aspektlərinə toxunaraq, tərəflərin bir-birini daha yaxşı anlamaq üçün hansı vasitələrdən istifadə edə biləcəklərini izah etmişdir.

Seminar zamanı mediasiyanın növləri, onun müxtəlif situasiyalarda tətbiqi və xüsusilə ailə, iş və ictimai mühitdə yaranan münaqişələrin həllindəki əhəmiyyəti geniş müzakirə olunmuşdur. Tələbələr mediasiya texnikaları və mediatorun rolu ilə bağlı suallar verərək, praktiki məsələlər üzərində fikir mübadiləsi aparmışlar.

Tədbirin sonunda departamentin koordinatoru Mələk Kərimova bu cür maarifləndirici seminarların davam etdiriləcəyini bildirərək, mediasiya sahəsinin psixologiya və hüquq təhsili alan tələbələr üçün xüsusi əhəmiyyət daşıdığını vurğulamışdır.

## LESSON ON MEDIATION

On October 16, an informative lesson on Mediation was held at Khazar University for third-year psychology students, organized by the Psychology Department. Mediation specialist Gasim Shaliyev was invited as a guest lecturer.

The purpose of the lecture was to explain in detail to students how the mediation process is applied in the fields of law and psychology, and what role it plays in peaceful conflict resolution. Gasim Shaliyev addressed not only the legal but also the psychological aspects of mediation, explaining what tools parties can use to better understand each other.

During the seminar, the types of mediation, its application in various situations, and particularly its importance in resolving conflicts in family, work, and social environments were widely discussed. Students asked questions about mediation techniques and the mediator's role, exchanging ideas on practical issues.

At the end of the event, department coordinator Malak Karimova announced that such educational seminars would continue, emphasizing that the field of mediation is of particular importance for students studying psychology and law.

# AIESEC-İN MƏLUMATLANDIRICI TƏDBİRİ

Oktyabrın 16-da Xəzər Universitetində Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə AIESEC-in (İqtisadiyyat və Biznes Tələbələrinin Beynəlxalq Assosiasiyası) Azərbaycan şöbəsi tərəfindən məlumatlandırıcı tədbir keçirilmişdir. Əsas məqsəd tələbələrə AIESEC haqqında və onun mübadilə proqramları: xaricdə qlobal könüllülük, maaşlı təcrübə proqramları və qonaq ailə layihəsi haqqında məlumatları təqdim etmək idi.

# AIESEC INFORMATION SESSION

On October 16, an information session was held at Khazar University by the Azerbaijan branch of AIESEC (International Association of Students in Economics and Business) organized by the Career and Alumni Center. The main objective was to provide students with information about AIESEC and its exchange programs: global volunteering abroad, paid internship programs, and host family project.




*Jalə Zeynalzadə*

Tədbiri AIESEC-in könüllü əməkdaşı, Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin 3-cü kurs tələbəsi Jalə Zeynalzadə və digər könüllülər keçirmişlər.

Tədbir zamanı tələbələr AIESEC-in məlumatlandırıcı lövhəsinə yaxınlaşaraq, təşkilat tərəfindən təqdim olunan proqramların üstünlükləri haqqında ətraflı məlumat əldə etmişlər.

The event was conducted by AIESEC volunteer Jala Zeynalzade, a third-year student from Khazar University's School of Humanities, Education and Social Sciences, along with other volunteers.

During the event, students approached AIESEC's information board and obtained detailed information about the benefits of programs offered by the organization.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ 4-CÜ MANAS FORUMUNDA

## HEAD OF POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT AT 4TH MANAS FORUM




*Atilla Alkan, Orxan Vəliyev*

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev Heydər Əliyev Avrasiya Araşdırmalar Mərkəzinin müdiri Prof. Yaşar Sarı`nın dəvəti ilə oktyabrın 16-18-də keçirilən 4-cü Manas Forumunda "Azətbaycanın geosiyasi taleyi: önəmli bir dövlət" adlı məruzəsi ilə iştirak etmişdir.

Forum İstanbul şəhərində İbn Haldun Universitei Heydər Əliyev Avrasiya Araşdırmalar Mərkəzi və Qırğızıstan-Türkiyə Manas Uniersitetinin təşkilatçılığı, Türkiyə Mədəniyyət Nazirliyi Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TIKA), Türk Dövlətləti Təşkilatı, Türksam, Xaricdə Yaşayan Türklər və Qohum İcmaları, Ahmet Yesevi Universiteti, Ankara Sosial Elmlər Universiteti, İstanbul Sabahattin Zaim Universiteti, Ankara Hacı Bayram Universiteti, İstanbul Ticarət Universiteti və İstanbul Gelişim Universitetinin dəstəyi ilə "Avrasiyada əlaqələrin və əməkdaşlığın gücləndirilməsi" mövzusunda təşkil olunmuşdur.

Sonda İbn Haldun Universitetinin rektoru Prof. Atilla Alkan`a və Heydər Əliyev Avrasiya Araşdırmalar Mərkəzinin müdiri Prof. Yaşar Sarı`ya Prof. Hamlet İsaxanlının "Mənim Qarabağım və ya Qarabağ düyümü" və "Xəzərin Sorağında" kitabları hədiyyə edilmişdir.

The Head of the Department of Political Science and Philosophy, Assoc. Prof. Orkhan Veliyev, participated in the 4th Manas Forum, delivering a presentation entitled "Geopolitical Fate of Azerbaijan: A Keystone State." This event took place from October 16 to 18, in Istanbul, at the invitation of Professor Yasar Sari, Director of the Heydar Aliyev Eurasian Studies Center.

The forum was jointly organized by Ibn Khaldun University, the Heydar Aliyev Eurasian Studies Center, and the Kyrgyz-Turkish Manas University, with support from various esteemed institutions, including the Turkish Ministry of Culture's Turkish Cooperation and Coordination Agency (TCCA), the Organization of Turkish States, Türksam, the Association of Turks Abroad and Related Communities, Ahmet Yesevi University, Ankara Social Sciences University, Istanbul Sabahattin Zaim University, Ankara Hacı Bayram University, Istanbul Commerce University, and Istanbul Gelisim University. The central theme of the forum was "Enhancing Connectivity and Cooperation in Eurasia."

At the conclusion of the event, Professor Atilla Alkan, Rector of Ibn Khaldun University, and Professor Yasar Sari were presented with copies of Professor Hamlet Isakhanli's books "My Karabakh or the Karabakh Knot" and "At the Edge of the Caspian" as expressions of appreciation.


*Dilqəm Əhməd, Orxan Vəliyev*

# DEPARTAMENT MÜDİRİ İSTANBUL BAŞ KONSULLUĞUNUN TƏDBİRİNDƏ

# DEPARTMENT HEAD ATTENDS EVENT AT ISTANBUL CONSULATE GENERAL

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev oktyabrın 18-də Azərbaycan Respublikası İstanbul Baş Konsulluğunun dəvəti ilə "Çapar" jurnalının baş redaktoru Dilqəm Əhmədin Baş Konsulluğun dəstəyi ilə nəşr edilmiş "Son mənzili İstanbul olan azərbaycanlılar" kitabının təqdimatında iştirak etmişdir.

Kitab başda Əhməd Bəy Ağaoğlu, Əli Bəy Hüseynzadə olmaqla Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında iştirakı və rolu olmuş ziyalı nəslin İstanbulda yaşamış və dəfn edilmiş üzvlərinin bir qisminə həsr olunmuşdur.

Azərbaycanın İstanbuldakı baş konsulluğu tərəfindən təşkil olunan tədbirdə çıxış edən baş konsul Nərminə Mustafayeva, Azərbaycanın Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyev, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Türkiyə Böyük Millət Məclisinin (TBMM) Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri millət vəkili Şamil Ayrım, Türkiyə Mərmərə Universitetinin professoru Mehdi Gəncəli, Fətəli xan Xoyskinin qardaşı nəvəsi Kərim Mehmedzadə, professor İbrahim Yıldırım və digərləri 1918-ci ildən sonra Azərbaycanı tərk etmək məcburiyyəti qarşısında qalan azərbaycanlıların ağır həyat yolu haqqında danışıblar.

Kitabda İstanbulda dəfn edilmiş azərbaycanlılarla bağlı nadir fotoşəkillər və sənədlərə yer verilmişdir. Tədbir Azərbaycan Respublikasının Türkiyədəki səfirliyinin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin solisti Vüsalə Əsgərovanın ifasında təqdim edilən musiqi proqramı ilə tamamlanmışdır.

Associate Professor Orkhan Valiyev, head of the Department of Political Science and Philosophy, attended the presentation of the book "Azerbaijanis Whose Final Destination Was Istanbul" by the editor in chief of the journal "Chapar" Dilgam Ahmad on October 18, at the invitation of the Consulate General of the Republic of Azerbaijan in Istanbul. The book was published with the support of the Consulate General.

The book is dedicated to some members of the intellectual generation who played a role in the establishment of the Azerbaijan Democratic Republic, including Ahmed Bey Aghaoglu and Ali Bey Huseynzade, who lived and were buried in Istanbul.

At the event organized by Azerbaijan's Consulate General in Istanbul, speakers including Consul General Narmina Mustafayeva, Azerbaijan's Ambassador to Bosnia and Herzegovina Vilayat Guliyev, Chairman of Azerbaijan Writers' Union and People's Writer Anar, Head of Turkey-Azerbaijan Parliamentary Friendship Group in the Grand National Assembly of Turkey (GNAT) MP Shamil Ayrim, Marmara University Professor Mehdi Ganjali, Fatali Khan Khoyski's grandnephew Karim Mehmetdazde, Professor Ibrahim Yildirim and others discussed the difficult life paths of Azerbaijanis who were forced to leave Azerbaijan after 1918.

The book features rare photographs and documents related to Azerbaijanis buried in Istanbul. The event concluded with a musical program performed by Vusala Asgarova, soloist of the Azerbaijan Cultural Center under the Embassy of the Republic of Azerbaijan in Turkey.

## COP29 VƏ YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK TƏDBİRLƏRİ ÇƏRÇİVƏSİNDƏ SEMİNAR

Oktyabrın 18-də Xəzər Universitetində COP29 və Yaşıl Dünya naminə Həmrəylik tədbirləri çərçivəsində Fizika və elektronika departamentinin müəllimi Əhməd Asimov tərəfindən "Karbon tutma texnologiyasında nanohissəciklərin istifadəsi" (Nanoparticles Usage in Carbon Capture Technology) mövzusunda seminar keçirildi. Seminarda universitetin müəllim və tələbələri iştirak edirdilər.

Azərbaycanın COP29 və Yaşıl Dünya naminə Həmrəylik kimi tədbirin keçirilməsi üçün seçilməsi təsadüfi deyil. İqlim dəyişmələrinin qarşısının alınması, ilk növbədə, istixana effektini törədən qazların atmosferə buraxılmasını ya sıfır səviyyəsinə endirilməsini, ya da əhəmiyyətli dərəcədə azaldılmasını tələb edir. Bu isə enerji transformasiyanın əsas istiqaməti olan bərpaolunmayan enerji mənbələrindən (kömür, neft, qaz, torf, müxtəlif növ bitumlar və s.) bərpaolunan enerjiyə (günəş, külək, su axarları və s.) keçmək deməkdir.

Əhməd Aslimov bərpa olunan enerjidən istifadə, enerji səmərəliliyi və məcburi emissiyaların kompensasiyasını təmin etmək, istixana qazı tullantılarını azaltmaq və karbon neytrallığına nail olmaq üçün nanotexnologiyanın tətbiqinin vacibliyini vurğuladı. Seminar tələbələrin böyük marağına səbəb oldu və müzakirələrlə davam etdi.

## A SEMINAR WITHIN THE FRAMEWORK OF COP29 AND GREEN WORLD SOLIDARITY EVENTS

On October 18, a seminar on "Nanoparticles Usage in Carbon Capture Technology" was conducted by Ahmed Asimov, a lecturer at the Department of Physics and Electronics at Khazar University, as part of COP29 and Green World Solidarity events. University instructors and students participated in the seminar.



*Əhməd Asimov*

It is not by chance that Azerbaijan was chosen to host events like COP29 and Green World Solidarity. Preventing climate change primarily requires either reducing greenhouse gas emissions to zero or significantly decreasing them. This means transitioning from non-renewable energy sources (coal, oil, gas, peat, various types of bitumen, etc.) to renewable energy (solar, wind, water flows, etc.), which is the main direction of energy transformation.

Ahmed Asimov emphasized the importance of applying nanotechnology to ensure the use of renewable energy, energy efficiency, and compensation for mandatory emissions, reduce greenhouse gas emissions, and achieve carbon neutrality. The seminar arouse great interest among students and continued with discussions.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ MƏRKƏZİ QƏRARGAHINDA

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev Türk Dövlətləri Təşkilatının (TDT) Özbəkistan Respublikasının təmsilçisi, beynəxalq kadr kimi fəaliyyət göstərən Muradcan Mustafayevin



*Muradcan Mustafayev, Orxan Vəliyev*

dəvəti ilə oktyabrın 18-də TDT-nın İstanbuldakı mərkəzi qərargahında olmuşdur.

Görüş zamanı Orxan Vəliyev Muradcan Mustafayevə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlının "Mənim Qarabağım və ya Qarabağ düyünü" və "Xəzərin Sorağında" kitablarını hədiyyə etmişdir.

## HEAD OF POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT AT THE HEADQUARTER OF ORGANIZATION OF TURKIC STATES

On october 18, the Head of the Department of Political Science and Philosophy, Assoc. Prof. Orkhan Veliyev, was at the Headquarter of Organization of Turkic States through the invitation of Murodjon Mustofaev who was the representative of the Republic of Uzbekistan and serve as an international staff.

At the conclusion of the event, Murodjon Mustofaev was presented with copies of Professor Hamlet Isakhanli's books "My Karabakh or the Karabakh Knot" and "At the Edge of the Caspian" as expressions of appreciation.

# DEPARTAMENT MÜDİRİ BAKI İSTEDADLI GƏNCLƏR AKADEMİYASINDA

# DEPARTMENT HEAD AT BAKU TALENTED YOUTH ACADEMY

Oktyabrın 19-da Gəncliyə Yardım Fondunun nəzdində fəaliyyət göstərən Bakı İstedadlı Gənclər Akademiyasının təşkilatçılığı ilə Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu "İqlim böhranları və nizamsızlıq dövründə türk dövlətlərinin təhlükəsizlik sahəsindəki əməkdaşlığının önəmi" mövzusunda seminar keçirib. Seminarda Azərbaycanın müxtəlif universitetlərində təhsil alan tələbələr iştirak ediblər.

Tədbirin sonunda Telman Nüsrətoğlu fond rəhbərliyi tərəfindən gənclərin maarifləndirilməsi istiqamətində gördüyü işlərə görə mükafatlandırılıb və xatirə hədiyyəsi olaraq departament müdirinə Piri Rəisin 500 il əvvəl hazırladığı Xəzər xəritəsinin taxta üzərinə işlənmiş şəkli təqdim olunub.

On October 19, Associate Professor Telman Nusratoglu, head of the History and Archaeology Department at Khazar University, conducted a seminar on "The Importance of Security Cooperation Among Turkic States in the Period of Climate Crises and Disorder" organized by the Baku Talented Youth Academy operating under the Youth Support Fund. Students from various universities in Azerbaijan participated in the seminar.

At the end of the event, Telman Nusratoglu was awarded by the fund management for his work in educating young people, and he was presented with a commemorative gift - a wooden engraving of Piri Reis's 500-year-old Caspian Sea map.




*Telman Nüsrətoğlu, Gəncliyə Yardım Fondunun rəhbəri Ahmet Tecim*

# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ TÜRKİYƏDƏ KEÇİRİLƏN BEYNƏLXALQ SİMPOZİUMDA

# HISTORY AND ARCHAEOLOGY DEPARTMENT INSTRUCTOR AT INTERNATIONAL SYMPOSIUM IN TURKEY

Oktyabrın 15-19-da Türkiyənin İzmir şəhərindəki Ege Universitetində Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin xatirəsinə həsr edilmiş Türk Dünyasında Mətbuat Simpoziumunun təşkilatçıları sırasında Xəzər Universiteti Azərbaycandan yeganə ali təhsil müəssisəsi olaraq yer alıb.

Simpoziuma Türkiyədən 60 və 17 ölkədən 110 alim qatılıb. Xəzər Universitetini Tarix və arxeologiya departamentinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlu təmsil edib. O, əvvəlcə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsa-

Khazar University was the only higher education institution from Azerbaijan among the organizers of the Press Symposium in the Turkic World, dedicated to the memory of Hasan bey Zardabi, the founder of Azerbaijan's national press, held at Ege University in Izmir, Turkey, on October 15-19, 2024.

The symposium was attended by 60 scholars from Turkey and 110 scholars from 17 countries. Khazar University was represented by Dr. Haji Narimanoglu, instructor at the Department of History and Archaeology. He first conveyed the greetings of Professor Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors




*Hacı Nərimanoğlu*

xanlının salamlarını simpozium iştirakçılarına və Ege Universitetinin rəhbərliyinə çatdırıb, sonra türk dövlətlərinin ortaq dil və əlifbası ideyasının tarixinə həsr olunmuş məruzə ilə çıxış edib. Maraqla qarşılanan məruzə ətrafında geniş müzakirə aparılıb. İştirakçılara sertifikatlar təqdim olunub.

Simpozimun açılış günü Azərbaycanın Türkiyədəki səfirliyinin nəzdindəki Mədəniyyət Mərkəzi Ege Universiteti Ədəbiyyat fakültəsi kollektivinin dəstəyi ilə İzmir Mədəniyyət Mərkəzində Azərbaycan sənətçilərinin möhtəşəm konsertini, Qarabağa, Şuşaya, Zəfər gününə, milli geyimlərimizə həsr olunmuş sərgilər təşkil edib.

and Trustees, to the symposium participants and the leadership of Ege University, and then delivered a presentation on the history of the idea of common language and alphabet of Turkic states. The presentation was well-received and followed by extensive discussions. Certificates were presented to the participants.

On the opening day of the symposium, the Cultural Center of the Azerbaijan Embassy in Turkey, with the support of the Ege University Faculty of Literature staff, organized a magnificent concert by Azerbaijani artists at the Izmir Cultural Center, along with exhibitions dedicated to Karabakh, Shusha, Victory Day, and our national costumes.

## DEPARTAMENT MÜDİRİ BEYİN MƏRKƏZLƏRİ PLATFORMASI PORTALININ TƏQDİMATINDA



*Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseyov, Orxan Vəliyev*

Oktyabrın 21-də Azərbaycanda Beyin Mərkəzləri Platformasının və onun onlayn portalının (think-tanks.az) təqdimatı keçirilib. Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Orxan Vəliyev tədbirdə iştirak edib.

Beyin Mərkəzləri Platforması Azərbaycanda siyasi, iqtisadi, daxili, ekoloji və digər mühüm sahələrdə ixtisaslaşmış beyin mərkəzləri şəbəkəsidir. Platformanın yaradılmasında əsas məqsəd beyin mərkəzlərinin fəaliyyətini dəstəkləmək, dövlət qurumları ilə beyin mərkəzləri arasında müntəzəm ünsiyyət və əməkdaşlığı inkişaf etdirməkdir.

Təqdimatda Beyin Mərkəzləri Platformasının Azərbaycanın dünyaya çıxış imkanlarının genişləndirilməsində və Azərbaycan haqqında qlobal miqyasda məlumatlılığın artırılmasında mühüm rol oynayacağı vurğulanıb. Müzakirə, həmçinin, qlobal risklərin yaratdığı çağırışlara hazırlaşmaq üçün beyin mərkəzlərinin vahid platformasının yaradılmasının əhəmiyyəti, beyin mərkəzləri ilə ictimaiyyət arasında əlaqələrin gücləndirilməsi və digər əlaqəli məsələləri əhatə edib.

Qeyd edək ki, Beyin Mərkəzləri Platforması özündə 27 beyin mərkəzini birəşdirir.

## HEAD OF DEPARTMENT AT THE PRESENTATION OF THINK TANK PLATFORM

On October 21, the presentation of the Think Tanks Platform and its online portal (think-tanks.az) was held in Azerbaijan. Orxan Valiyev, head of the Department of Political Science and Philosophy attended the event.

The Think Tanks Platform is a network of think tanks in Azerbaijan specializing in political, economic, domestic, environmental, and other critical areas. The primary purpose of establishing the platform is to promote the activities of think tanks, foster regular communication and cooperation between state institutions and think tanks, as raise public awareness about their work.

In the presentation, it was emphasized that the Think Tanks Platform plays an important role in enhancing Azerbaijan's access to the world and raising awareness of Azerbaijan globally. The discussion also covered the significance of creating a unified platform of think tanks to prepare for challenges posed by global risks, the strengthening of relationships between think tanks and the public, and other related issues.

It should be noted that the Think Tank Platform includes 27 think thanks.

# DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ DİLÇİLİK İNSTİTUTUNDA KEÇİRİLMİŞ ELMİ SESSİYADA

# LANGUAGES AND LITERATURE DEPARTMENT LECTURER AT SCIENTIFIC SESSION HELD AT INSTITUTE OF LINGUISTICS



*İlhami Cəfərsoy, Sevinc Qəmbərova*

Oktyabrın 21-də AMEA Nəsimi adına Dilçilik İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının təşkilatçılığı ilə Şuşa şəhərinin "İslam Əməkdaşlıq Təşkilatının Gənclər Paytaxtı" seçilməsinə həsr olunmuş "İslam mədəniyyətinin incisi Şuşa – gənc dilçi alimlərin tədqiqatlarında" adlı elmi sessiya keçirilmişdir.

İnstitutun elmi işlər üzrə direktor müavini Dos. Baba Məhərrəmli açılış nitqi söyləmişdir. Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dr. Sevinc Qəmbərova "Azərbaycan dilinin dialekt sistemində Şuşa şivəsinin mövqeyi", institutun Türk dilləri şöbəsinin böyük elmi işçisi Dr. Dilbər Camali "Şuşalı ziyalılar", Toponimika şöbəsinin kiçik elmi işçisi Ayşən İsmayıllı "Qarabağın incisi Şuşa" mövzularında məruzə etmişlər.

Qədim dillər və mədəniyyətlər şöbəsinin müdiri fil.e.d. İlhami Cəfərsoy, Toponimika şöbəsinin müdiri Dos. Elçin İsmayılov, Türk dilləri şöbəsinin aparıcı elmi işçisi Dos. Qətibə Mahmudova çıxış edərək, Azərbaycanın incisi Şuşa şəhərinin cari il üçün "İslam Əməkdaşlıq Təşkilatının Gənclər Paytaxtı" seçilməsinin əhəmiyyətindən, Şuşa ilə bağlı xatirələrindən danışıblar.

Elmi sessiya müzakirələrlə başa çatmışdır.

On October 21, a scientific session titled "Shusha, the Pearl of Islamic Culture - in the Research of Young Linguists" was held at the Institute of Linguistics named after Nasimi of ANAS, organized by the Council of Young Scientists and Specialists. The session was dedicated to the selection of Shusha city as the "Youth Capital of the Organization of Islamic Cooperation."

Associate Professor Baba Maharramli, Deputy Director for Scientific Affairs of the Institute, delivered the opening speech. Dr. Sevinj Gambarova, lecturer at Khazar University's Department of Languages and Literature, presented on "The Position of Shusha Dialect in the Dialect System of Azerbaijani Language," Dr. Dilbar Jamali, senior researcher of the Department of Turkic Languages, presented on "Intellectuals from Shusha," and Ayshan Ismayilli, junior researcher of the Department of Toponymy, presented on "Shusha, the Pearl of Karabakh."

Dr. Ilhami Jafarsoy, head of the Department of Ancient Languages and Cultures, Associate Professor Elchin Ismayilov, head of the Department of Toponymy, and Associate Professor Gatiba Mahmudova, leading researcher of the Department of Turkic Languages, spoke about the significance of Shusha city's selection as the "Youth Capital of the Organization of Islamic Cooperation" for the current year and shared their memories of Shusha.

The scientific session concluded with discussions.

# TÜRKİYƏNİN İNSAN VƏ MƏDƏNİYYƏT HƏRƏKATININ NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ

# DELEGATION FROM TURKEY'S HUMAN AND CULTURE MOVEMENT AT "KHAZAR"



*Hamlet İsaxanlı, Meryem Güney*

Türkiyənin İnsan və Mədəniyyət Hərəkatının nümayəndə heyəti oktyabrın 22-də Xəzər Universitetinə gələrək, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı ilə görüşüb.

Nümayəndə heyətinin rəhbəri Meryem Güney oktyabrın 22-də Bakı Muzey Mərkəzində Xəzər Universiteti ilə Türkiyənin İnsan və Mədəniyyət Hərəkatının birgə təşkil etdikləri "Zamanını aşan miras - İpək yolu" adlı beynəlxalq sərgi - konfransın yüksək səviyyədə keçirilməsində verdiyi dəstəyə görə Prof. Akad. Hamlet İsaxanlıya təşəkkür bildirərək, plaket və hədiyyələr təqdim edib.

On October 22, a delegation from Turkey's Human and Culture Movement visited Khazar University and met with Professor Hamlet Isakhanli, the founder of the university and Chairman of the Board of Directors and Trustees.

Meryem Guney, the head of the delegation, thanked Professor Hamlet Isakhanli for his support in the successful organization of the international exhibition-conference "Heritage Beyond Time - Silk Road," jointly organized by Khazar University and Turkey's Human and Culture Movement at the Baku Museum Center on October 22, and presented him with a plaque and gifts.

## "XƏZƏR" İN MÜƏLLİMİNİN HEKAYƏSİ KAZANDA ÇAP OLUNAN "ÇAĞDAŞ AZƏRBAYCAN HEKAYƏSİ" ANTOLOGİYASINDA

## KHAZAR INSTRUCTOR'S STORY PUBLISHED IN "CONTEMPORARY AZERBAIJANI STORY" ANTHOLOGY IN KAZAN

Tatarıstan Respublikası Dövlət Şurasının deputatı, Tatarıstan Yazıçılar Birliyinin sədri, Xalq şairi Rkail Zəydulla və Beynəlxalq "Alaş" Ədəbiyyat mükafatı laureatı, Dünya Gənc Türk Yazarlar Birliyi (DGTYB) Məsləhət Şurasının sədri Əkbər Qoşalının layihə rəhbəri olduğu antologiya Tatarıstan Yazıçılar Birliyinin "Ədəbi birgəlik" seriyasından çap olunub.

Kazandakı məşhur "Yazıçı" nəşriyyatında nəfis şəkildə işıq üzü görən antologiyanın tərtibçisi Tatarıstan Yazıçılar Birliyinin başqan müavini İlsiyar Qaripova, məsləhətçisi Tatarıstanda yaşayan tanınmış azərbaycanlı vəkil İsmət Orucəliyev, rəyçiləri Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu, DGTYB başqanı İntiqam Yaşar, "Çukurova Ədəbiyyatçılar Dərnəyi" İctimai Birliyinin fəxri başqanı İlqar Türkoğludur.

Tatar türkcəsində işıq üzü görən "Çağdaş Azərbaycan hekayəsi" antologiyasında çap olunan mətnlər arasında Dillər və ədəbiyyatlar departamentinin müəllimi Yeqzar Cəfərlinin müəllifi olduğu "Cənab K" adlı hekayəsi də var.

Antologiyanın Azərbaycanda və Tatarıstanda təqdimatı nəzərdə tutulur.

The anthology, led by Rkail Zeydulla, Deputy of the State Council of the Republic of Tatarstan, Chairman of the Writers' Union of Tatarstan, People's Poet, and Akbar Goshali, laureate of the International "Alash" Literary Award and Chairman of the Advisory Board of the World Young Turkic Writers Union (WYTWU), has been published as part of the "Literary Cooperation" series of the Writers' Union of Tatarstan.

The anthology, elegantly published by the famous "Writer" publishing house in Kazan, was compiled by Ilsiyar Garipova, Vice Chairman of the Writers' Union of Tatarstan, with Ismet Orujaliyev, a well-known Azerbaijani lawyer living in Tatarstan, serving as consultant. The reviewers are Salim Babullaoglu, Secretary of the Azerbaijan Writers' Union, Intigam Yashar, Chairman of DGTYB, and Ilgar Turkoglu, Honorary Chairman of the "Cukurova Literature Association" Public Union.

Among the texts published in the "Contemporary Azerbaijani Story" anthology, which was published in Tatar Turkish, is the story "Mister K" authored by Yegzar Jafarli, instructor at the Department of Languages and Literatures.

Presentations of the anthology are planned in both Azerbaijan and Tatarstan.

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORUNUN MƏQALƏSİ "ANNALES UNİVERSİTATIS MARIAE CURIE-SKLODOWSKA, SECTIO A–MATHEMATICA" JURNALINDA

## MATHEMATICS DEPARTMENT PROFESSOR'S ARTICLE PUBLISHED IN "ANNALES UNIVERSITATIS MARIAE CURIE-SKLODOWSKA, SECTIO A–MATHEMATICA" JOURNAL

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "Singular linear q-Hamiltonian systems" ("Sinqulyar xətti q-Hamilton sistemləri") adlı birinci müəllifi olduğu məqalə "Annales Universitatis Mariae Curie-Sklodowska, sectio A–Mathematica" (2024, Cild 78, № 1) jurnalında dərc olunmuşdur. Qeyd edək ki, "Annales Universitatis Mariae Curie-Sklodowska, sectio A–Mathematica" jurnalı MathSciNet (Mathematical Reviews) və Zentralblatt MATH bazalarında indeksələnib.

Məqalədə sinqulyar xətti q-Hamilton sistem tədqiq edilir. Bu sistem üçün Titchmarsh-Weyl nəzəriyyəsi qurulur.

An article titled "Singular linear q-Hamiltonian systems," co-authored by Professor Bilandar Allahverdiyev of Khazar University's Mathematics Department as the first author, has been published in "Annales Universitatis Mariae Curie-Sklodowska, sectio A–Mathematica" (2024, Volume 78, No. 1) journal. It should be noted that "Annales Universitatis Mariae Curie-Sklodowska, sectio A–Mathematica" is indexed in MathSciNet (Mathematical Reviews) and Zentralblatt MATH databases.

In this paper, a singular linear q-Hamiltonian system is considered. The Titchmarsh-Weyl theory for this problem is constructed

*https://journals.umcs.pl/a/article/view/17940*
*https://journals.umcs.pl/a*

## TƏRCÜMƏ MƏRKƏZİNİN KOORDİNATORU İCTİMAİ TELEVİZİYADA

## COORDINATOR OF CENTER OF TRANSLATION AND INTERPRETATION ON "ICTIMAI" TELEVISION

2024-cü il sentyabrın 25-də "Avropa Dillər Günü" (European Day of Languages) münasibətilə Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin tərcümə müəllimi və universitetin Tərcümə Mərkəzinin koordinatoru Dr. Elvin Abbasbəyli İctimai Televiziyanın (İTV) "Sabahın xeyir, Azərbaycan!" verilişinə müsahibə verib. Müsahibə zamanı aparıcıların yazılı və şifahi tərcüməçilik peşəsi, süni intellektin tərcüməçilik peşəsinin gələcəyinə təhlükə təşkil edib etməməsi və xarici dillər haqqında digər çoxsaylı suallarını cavablandırıb.

On September 25, 2024, on the occasion of the European Day of Languages, Dr. Elvin Abbasbeyli, translation instructor at Khazar University's Department of English Language and Literature and coordinator of the university's Center of Translation and Interpretation, gave an interview to the "Good Morning, Azerbaijan!" program on "Ictimai" Television (ITV). During the interview, he answered the hosts' numerous questions about the professions of translator and interpreter, whether artificial intelligence poses a threat to the future of the translation profession, and other questions about foreign languages.

*https://www.youtube.com/watch?v=9oKxoKaUy9Y*

## DİLLƏR VƏ ƏDƏBİYYATLAR DEPARTAMENTİNİN MÜƏLLİMİ REAL RADİODA

## INSTRUCTOR OF THE DEPARTMENT OF LANGUAGES AND LITERATURES ON REAL RADIO

2024-cü il oktyabrın 5-də Dillər və ədəbiyyatlar departamentinin müəllimi Dr.Sevinc Qəmbərova Real Radionun "Real Səhər" verilişində qonaq olmuşdur. O, mütaliə mədəniyyəti, oxu və modelləri, oxucu növləri, müxtəlif yaş qruplarına aid olan bədii ədəbiyyat nümunələri və s. barədə danışmış, verilişin aparıcıları Kəmalə Onur və Ürfan Məmmədlinin mövzu ilə bağlı suallarını cavablandırmışdır.

On October 5, 2024, Dr. Sevinj Gambarova, a member of the Department of Languages and Literatures, was a guest on Real Radio's "Real Morning" program. She discussed reading culture, reading and its models, types of readers, examples of fiction literature for different age groups, and other related topics. She also answered questions from the program hosts Kamala Onur and Urfan Mammadli about the topic.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN AZƏRTAC-A MÜSAHİBƏSİ

## INTERVIEW OF HEAD OF DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY AT AZERTAC

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dos. Orxan Vəliyev 2024-cü il oktyabrın 13-də "Ermənistanın hədə-qorxusu onların ağır məğlubiyyəti ilə nəticələndi" mövzusunda AZƏRTAC-a müsahibə vermişdir.

Dos. Orxan Vəliyev Ermənistandakı revanşist zümrələri təmsil edən siyasətçilər və hərbiçilərin Azərbaycanı hədələməkdən geri çəkilməməsi, Azərbaycanın müdafiə sisteminin yüksək səviyyədə olması və bu hədələrin boşa çıxması, müharibədən sonra Azərbaycanın cənubi Qafqazda təhlükəsizliyin və sülhün bərqərar olması üçün çalışması və digər məsələlərə toxunmuşdur.

Associate Professor Orkhan Valiyev, Head of the Department of Political Sciences and Philosophy, gave an interview to AZERTAC on October 13, 2024, on the topic "Armenia's threats resulted in their heavy defeat."

Assoc. Prof. Orkhan Valiyev discussed several issues, including how politicians and military officials representing revanchist circles in Armenia continue to make threats against Azerbaijan, Armenia's claims about launching missiles at Kura and Nakhchivan during the war, Azerbaijan's high-level defense system and how these threats proved futile, and Azerbaijan's efforts to establish security and peace in the South Caucasus after the war.

*https://www.youtube.com/watch?v=JplRoP4R-oo&t=41s*

## XƏZƏR UNİVERSİTETİ "TİBB TƏHSİLİ VƏ TƏDQİQATLARININ BEYNƏLMİLƏLLƏŞDİRİLMƏSİ" BEYNƏLXALQ FORUMUNDA

Oktyabrın 20-22-də "Bir Kəmər, Bir Yol" təşəbbüsünü dəstəkləyən universitetlərin, o cümlədən Xəzər Universiteti, Əl-Fərabi adına Qazax Milli Universiteti, Asfendiyarov adına Milli Tibb Universiteti, Nazarbayev Universiteti, Marat Ospanov adına Qərbi Qazaxıstan Tibb Universiteti və Səmərqənd Dövlət Tibb Universitetinin nümayəndələri Çinin Şençjen şəhərində Şençjen Tibb Məktəbi tərəfindən təşkil edilmiş forumda iştirak ediblər.

Forum üç əsas mövzuya diqqət yetirmişdir: Tibb elmi və texnologiya-innovasiya planı, beynəlxalq tibb təhsili əməkdaşlığı və etnik təbabətin innovasiyası. Məqsəd Şençjen Universiteti Tibb Məktəbi ilə "Bir Kəmər, Bir Yol" təşəbbüsünü dəstəkləyən universitetlər arasında birgə laboratoriyalar da daxil olmaqla texnoloji mübadilə platformalarının yaradılması idi.

Görüş zamanı nümayəndələr Çin Elmlər Akademiyasının akademiki, Şençjen Universitetinin rektoru Prof. Mao Junfa tərəfindən səmimi qarşılanıb.

Nümayəndələr, həmçinin, Pekin Genomika İnstitutunun (PGİ) baş qərargahı, Beynəlxalq Mübadilə Kolleci və Böyük Məlumatlar Sistemi Hesablama Texnologiyası üzrə Milli Mühəndislik Laboratoriyası kimi bir sıra mühüm məkanlara səfər ediblər.

Xəzər Universitetini forumda rektor, Dos. İradə Xəlilova təmsil edib. O, "Təhsil, qlobal səhiyyə və dayanıqlı inkişafı əlaqələndirmək üçün beynəlxalq elmi əməkdaşlıqların yaradılması" mövzusunda çıxış edib. O, həmçinin, Xəzər Universiteti haqqında təqdimatla çıxış edərək qurumlar arasında tədqiqat əməkdaşlığının yaradılmasını təşviq edib. Forum çərçivəsində İradə Xəlilova Xəzər Universiteti ilə Şençjen Universiteti arasında imzalanmış tərəfdaşlıq çərçivəsində təqaüd almış Xəzər Universiteti məzunları ilə görüşüb. Onların nailiyyətləri və çətinlikləri barədə müzakirələr aparıb və məsləhətlər verib.

Xəzər Universiteti bu mühüm tədbirin təşkilinə görə Şençjen Universitetinə öz minnətdarlığını bildirir və gələcək səmərəli tədqiqat əməkdaşlığına ümid edir.

## KHAZAR UNIVERSITY PARTICIPATED IN THE "INTERNATIONALIZATION OF MEDICAL EDUCATION AND RESEARCH" INTERNATIONAL FORUM

On October 20–22, representatives from universities along the Belt and Road Initiative, including Khazar University, Al-Farabi Kazakh National University, Asfendiyarov National Medical University, Nazarbayev University, Marat Ospanov West Kazakhstan Medical University, and Samarkand State Medical University, participated in the Shenzhen Forum organized by Shenzhen Medical School in Shenzhen, China.



*İradə Xəlilova*

The forum focused on three themes: Medical Science and Technology Innovation Plan, International Medical Education Cooperation, and the Innovation of Ethnic Medicine. The aim was to establish technological exchange platforms, including joint laboratories between the Shenzhen University Medical School and universities along the Belt and Road.

During the meeting, the representative received a warm welcome from Prof. Mao Junfa, President of SZU and an academician of the Chinese Academy of Sciences.

Delegates also visited several key locations, including the Headquarters of the Beijing Genomics




*Mao Junfa*



*Havva Papaxova, İradə Xəlilova, Nərgiz Hacıyeva, Zeynəb Əhmədova*

Institute (BGI), the College of International Exchange, and the National Engineering Laboratory for Big Data System Computing Technology.

Khazar University was represented by the rector, Assoc. Prof. Irada Khalilova at the forum. She gave a talk titled Creating International Scientific Collaborations to Link Education, Global Health and Sustainable Development. She also gave a presentation about Khazar University and encouraged the establishment of research collaboration among institutions. At the Forum, Irada Khalilova met Khazar University alumni who received scholarships through a signed partnership between Khazar University and Shenzhen University. She discussed their achievements and challenges and offered them advice.

Khazar University expresses its gratitude to Shenzhen University for organizing such a significant event and looking forward to future effective research collaboration.

Here is the link to the news published by Shenzhen University:

*https://en.szu.edu.cn/info/1013/1695.html*



# AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN MÜƏLLİMİ, NDU-NUN İLK REKTORU ƏLİ ƏLİYEVİN 120 İLLİYİ QEYD OLUNUB

Tədbirdən əvvəl qonaqlar Naxçıvan şəhər qəbiristanlığında tarix elmləri namizədi, dosent Əli Əliyevin məzarını ziyarət edərək Naxçıvan Dövlət Universiteti adından əklil qoyublar.

Naxçıvan Dövlət Universitetində keçirilən tədbir çərçivəsində universitetin ilk rektoru, görkəmli ictimai-siyasi xadim Əli Əliyevin adına auditoriyanın açılışı olub. Auditoriya Əli Əliyevin zəngin və çoxşaxəli həyat fəaliyyətini əks etdirən şəkillər, elektron resurslar, kitablar və digər elmi-ədəbi mənbələrlə təchiz edilib. Eyni zamanda, burada Əli Əliyevin həyat yolu və ictimai fəaliyyətinə dair xüsusi bölmə də təşkil edilib ki, bu da onun irsinin gələcək nəsillərə ötürülməsinə töhfə verəcək.

Tədbir başlamadan öncə Əli Əliyevə həsr olunan Naxçıvan Televiziyasının hazırladığı film nümayiş olunub.

Ali təhsil ocağının rektoru Elbrus İsayev görkəmli elm xadimi Əli Əliyevin istər tarix elminin, istərsə də Naxçıvan Dövlət Universitetinin inkişafı sahəsində gördüyü işlərdən ətraflı bəhs edib. Diqqətə çatdırılıb ki, tarixçi Əli Əliyev Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin müəllimlərindən olub. Rektor Əli Əliyevin elm və təhsil sahəsindəki xidmətlərindən bəhs edərək, onun xatirəsinin əbədiləşdirilməsinin əhəmiyyətini vurğulayıb. Əli Əliyevin böyük ictimai-siyasi xadim kimi fəaliyyətinə toxunan rektor, onun Azərbaycan ədəbiyyatında memuar janrda iz qoyduğunu diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycan-Ermənistan münaqişəsinin şahidi olaraq əsərlər qələmə alan tarixçi yazdığı "Əlincə yaddaşı" əsəri, Naxçıvanın tarixi və mədəni irsini qoruyan önəmli mənbələrdən biridir. Elbrus İsayev Əli Əliyevin universitetin ilk rektoru kimi Naxçıvanın təhsil mühitinə böyük töhfələr verdiyini və onun xidmətlərinin daim yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyev, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Hacı Fəxrəddin Səfərli, Tarix elmləri doktoru, dosent Eynulla Mədətli, Naxçıvan Dövlət Universitetinin fəlsəfə elmləri doktoru, professor Məmməd Rzayev, tarix elmləri doktoru, dosent Xəzər Hüseynov, Naxçıvan "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin direktoru Nəzakət Əsədova, Əli Əliyevin nəvəsi tarix üzrə fəlsəfə doktoru Nail Əliyev ali təhsil ocağının ilk rektorunun elmi-pedaqoji və ictimai fəaliyyətindən danışaraq, onunla bağlı xatirələrini bölüşüblər. Çıxış edənlər Əli Əliyevin milli dəyərlərə sadiqliyini, çətin dövrlərdə təhsil ocaqlarının inkişafı üçün göstərdiyi fədakarlıq və gənc nəsillərə qayğısını xüsusi vurğulayıblar.

**Nardanə Əliyeva**

*NDU Media və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı*

# NDU "TƏLƏBƏ PLUS" VƏ "IELTS İMTAHANINA TƏŞVİQ" LAYİHƏLƏRİNƏ QOŞULUB



Təhsilin İnkişafı Fondu və Təhsildə Keyfiyyət Təminatı Agentliyi İdarə Heyətlərinin Naxçıvan Dövlət Universitetində müəllim və tələbələrlə görüşü keçirilib.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayıb və ali təhsil ocağında təhsilin keyfiyyətinin inkişafı istiqamətində görülən işləri diqqətə çatdırıb. Bildirilib ki, universitetin əsas prinsipi ali təhsil ocağını dünyanın qabaqcıl təhsil sistemlərinə inteqrasiya edərək Azərbaycan ali təhsil məkanında lider bir quruma çevirmək, tədqiqat potensialını artıraraq universitetin əmək bazarı və sənaye ilə əlaqələrini gücləndirmək eyni zamanda tədqiqatyönümlü tədris mədəniyyəti formalaşdıraraq tələbələr və əməkdaşlar arasında demokratik prinsipləri izləmək və vətəndaş məsuliyyətini inkişaf etdirməkdir. Vurğulanıb ki, NDU özünüqiymətləndirmə və təkmilləşdirmə istiqamətinə sadiq qalaraq çoxşaxəli fəaliyyətini uğurla davam etdirir.

Sonra Təhsilin İnkişafı Fondunun fəaliyyətinə dair videoçarx izlənib.

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov fondun layihələri haqqında məlumat verib. Qeyd olunub ki, fondun əsas missiyası Azərbaycan Respublikasında təhsil sisteminin inkişafına yönəlmiş proqram və layihələrin dəstəklənməsi və dövlət təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılması yolu ilə təhsilin dayanıqlı inkişafına nail olmaqdır.. Bu istiqamətdə NDU-nun fəaliyyətini yüksək qiymətləndirən Elnur Nəsibov "Tələbə Plus" və "IELTS imtahanına təşviq" layihələrinin önəmindən də bəhs edib. Diqqətə çatdırılıb ki, "Tələbə Plus" layihəsi çərçivəsində müxtəlif alış-veriş və iaşə obyektlərində tələbələrin güzəştlər əldə etməsi üçün Təhsilin İnkişafı Fondunun öz tərəfdaşları ilə birlikdə 250-dən çox şirkətlə razılaşma əldə edilib.

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri Tural Əhmədov agentliyin fəaliyyət istiqamətini tədbir iştirakçılarının nəzərinə çatdırıb. Bildirilib ki, agentlik təhsil müəssisələrinin akkreditasiyasının həyata keçirilməsi üçün tövsiyələrin hazırlanması və təlimlərin təşkili, təhsil müəssisələrində daxili keyfiyyət təminatı sistemlərinin qurulması və inkişaf etdirilməsi ilə bağlı məsləhət və metodiki dəstəyin təşkil edilməsi və bir çox sahələrdə xidmət göstərir.

Sonra "Tələbə Plus" və "IELTS imtahanına təşviq" layihələri çərçivəsində ikitərəfli və üçtərəfli birgə əməkdaşlıq müqavilələri imzalanıb.

Daha sonra Naxçıvan Dövlət Universiteti adında qonaqlara hədiyyələr təqdim edilib.

**Fəxriyyə Səyyadova**

*NDU Media və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı*

## XƏZƏR UNİVERSİTETİNİN TƏRƏFDAŞLIĞI İLƏ BEYNƏLXALQ KONFRANS: "ZAMANINI AŞAN MİRAS - İPƏK YOLU"

## INTERNATIONAL CONFERENCE IN PARTNERSHIP WITH KHAZAR UNIVERSITY: "LEGACY BEYOND TIME - THE SILK ROAD"



*Hamlet İsaxanlı*

Oktyabrın 22-də Bakı Muzey Mərkəzində Xəzər Universiteti ilə Türkiyənin İnsan və Mədəniyyət Hərəkatının birgə təşkil etdiyi "Zamanını aşan miras - İpək yolu" adlı beynəlxalq sərgi-konfrans Türk dünyasınının elm və sənət adamlarının iştirakı ilə öz işinə başlamışdır. Konfransda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, Türkiyənin Azərbaycandakı səfiri Dos.Dr. Cahid Bağcı və İnsan və Mədəniyyət Hərəkatının rəhbəri Meryem Güney açılış çıxışları etmişlər.

Prof.Akad. Hamlet İsaxanlı bir çox ölkədə keçirilən bu silsə sərgi-konfransların önəmindən bəhs edərək xüsusilə sənətin, elmin birləşdirici xarakterinə diqqət çəkmiş, XII-XIII əsrlər İpək yolu mədəniyyətinin inkiafı ilə bağlı konfrans iştirakçılarına maraqlı məlumatlar vermişdir.

On October 22, an international exhibition-conference titled "Legacy Beyond Time - The Silk Road," jointly organized by Khazar University and Turkey's Human and Culture Movement, began at the Baku Museum Center with the participation of scholars and artists from the Turkic world. Opening speeches were delivered by Prof. Academician Hamlet Isakhanli, founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Associate Professor Dr. Cahit Bagci, Turkish Ambassador to Azerbaijan, and Maryam Guney, leader of the Human and Culture Movement.

Prof. Academician Hamlet Isakhanli discussed the importance of these series of exhibition-conferences held in many countries, particularly emphasizing the unifying nature of art and science, and provided interesting information to conference participants

Sərginin açılışından sonra davam edən konfransın panel hissəsində Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri Dos. Telman Nüsrətoğlu "İpək yolu, iqlim böhranları və təhlükəsizlik" mövzusunda geniş məruzə ilə çıxış etmişdir.

Xatırladaq ki, Türkiyə Böyük Millət Məclisi (TBMM) və Türkiyə Mədəniyyət Nazirliyinin himayəsində həyata keçirilən, İpək yolu güzərgahı üzərində yerləşən ölkələri əhatə edən silsilə sərgi-konfranslarda Çin, Qazaxıstan, Əfqanıstan, Pakistan, Özbəkistan, Azərbaycan, Qırğızıstan, Tatarıstan və İrandan olan 41 sənətkarın mövzu ilə bağlı xüsusi olaraq hazırladıqları xəttatlıq, təzhib, miniatür, əbru, qələm işi (qrafik xətt), ağacoyma, sədəf düzmə, keramika, zinət əşyaları və digər əsərlərindən ibarət sərgi nümayiş olunur. 41 elm adamının da İpək yolunun tarixi, istiqamətləri, önəmli mərkəzləri, elm və sənəti, dil və ədəbiyyatı, memarlıq və ticarətini incələyən məruzələri dinləniləcək.

Bu beynəlxalq layihənin Azərbaycandakı tərəfdaşı kimi Xəzər Universiteti seçilmişdir.

Ölkə saytları tədbir haqqında xəbər yayımlayıblar.

about the development of Silk Road culture in the XII-XIII centuries.

After the exhibition opening, during the panel session of the conference, Associate Professor Telman Nusretoglu, head of the History and Archaeology Department at Khazar University, delivered a comprehensive presentation on "Silk Road, Climate Crises, and Security."

It should be noted that the exhibition-conference series, held under the patronage of the Turkish Grand National Assembly (TBMM) and the Turkish Ministry of Culture, covers countries along the Silk Road route and features works by 41 artists from China, Kazakhstan, Afghanistan, Pakistan, Uzbekistan, Azerbaijan, Kyrgyzstan, Tatarstan, and Iran. The exhibition includes specially prepared calligraphy, illumination, miniature, paper marbling, pen work (graphic line), woodcarving, nacre inlay, ceramics, jewelry, and other works. Presentations from 41 scholars examining the Silk Road's history, directions, important centers, science and art, language and literature, architecture, and trade will also be heard.

Khazar University has been chosen as the partner for this international project in Azerbaijan. National websites have published news about the event.

*https://xezernews.az/?c=news&id=103453 və s.*

## "XƏZƏR"İN MÜƏLLİMİNƏ FƏLSƏFƏ DOKTORU DİPLOMU TƏQDİM EDİLİB

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 25 oktyabr 2024-cü il tarixli qərarı ilə Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi Yeqzar Cəfərliyə filologiya elm sahəsi üzrə 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat) ixtisasında filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir

Fəlsəfə doktoru diplomu Y.Cəfərliyə təqdim edilmişdir.

## KHAZAR UNIVERSITY LECTURER AWARDED PHD DIPLOMA

By the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan dated October 25, 2024, Yegzar Jafarli, a lecturer at the Department of Languages and Literature at Khazar University, was awarded the degree of Doctor of Philosophy (PhD) in Philology in the specialty 5718.01 - World Literature (English Literature).

The PhD diploma was presented to Y. Jafarli.


AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ
25.10.2024-cü il TARİXLİ
QƏRARI İLƏ
Yeqzar İsfəndiyar oğlu Cəfərliyə
(adı, atasının adı, soyadı)
5718.01 - Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat) İXTİSASINDA
(ixtisasın şifri və adı)
filologiya elmləri ELM SAHƏSİ ÜZRƏ
(elm sahəsinin adı)
FƏLSƏFƏ DOKTORU
ELMİ DƏRƏCƏSİ VERİLMİŞDİR
SƏDR: (imza) Famil Mustafayev (adı, soyadı)
BAŞ ELMİ KATİB: (imza) Firuzə Mayılova (adı, soyadı)
M.Y.

# BƏDR UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ "XƏZƏR"DƏ

# DELEGATION FROM BADR UNIVERSITY VISITS KHAZAR



*Hanan Mounib, Ashraf Mohamed El-Shihy, Hamlet İsaxanlı*

Oktyabrın 23-25-də Xəzər Universiteti Misir Ərəb Respublikası Qahirə Bədr Universitetinin nümayəndə heyətini qəbul edib.

Oktyabrın 23-də qəbul Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlının iştirakı ilə keçib. Bədr Universitetindən isə universitetin rektoru Dr. Ashraf Mohamed El-Shihy və Beynəlxalq əlaqələr və xarici işlər üzrə prorektor Prof.Dr. Hanan Mounib iştirak ediblər. Proqram çərçivəsində Bədr Universitetinin nümayəndə heyətinin "Dünya" Məktəbinə turu təşkil olunub. Görüşdə "Dünya" İB məktəbinin ditektoru Rəna Həsənova, Təşkilati işlər üzrə direktor müavini Rəşid Cəfərov, Karyera məsləhətçisi Zərifə Misirova iştirak etdilər. Burada qonaqlar kitabxana, sinif otaqları ilə tanışlıqdan sonra Nailəxanım muzeyində oldular.

Oktyabrın 24-də qəbul Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı, rektor Dos. İradə Xəlilova, Tədris işləri üzrə prorektor Prof. Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor Prof. İsaxan İsaxanlı, fakültə dekanları və departament müdirlərinin iştirakı ilə keçib.

Xəzər Universitetinin əməkdaşları təmsil etdikləri fakültə və departament haqqında ətraflı məlumat veriblər. Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva Xəzər Universiteti haqqında təqdimatla çıxış edib.

Bədr Universiteti və Xəzər Universiteti arasında tə-

On October 23-25, Khazar University hosted a delegation from Badr University in Cairo (BUC), Arab Republic of Egypt.

On October 23, the reception was held with the participation of Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and chairman of the Board of Directors and Trustees. The Badr University was represented by Dr. Ashraf Mohamed El-Shihy, the rector, and Prof. Dr. Hanan Mounib, vice-rector for International Relations and Foreign Affairs. As part of the program, the delegation from Badr University was given a tour of "Dunya" School. The meeting was attended by Rana Hasanova, director of "Dunya" IB School, Rashid Jafarov, deputy director for Organizational Affairs, and Zarifa Misirova, career counselor. After familiarizing themselves with the library and classrooms, they had an excursion to the Nailekhanim Museum.

On October 24, the reception was held with the participation of Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University and chairman of the Board of Directors and Trustees, Assoc. Prof. Irada Khalilova, rector, Prof. Muhammad Nuriyev, vice-rector for Academic Affairs, Prof. Isakhan Isakhanli, vice-rector for Administrative and Student Affairs, faculty deans and department heads.

Khazar University staff provided detailed information about their respective schools and departments. Fatima Valiyeva, head of International Relations Department, gave a presentation about Khazar University.

Discussions were held on strengthening partnership




*İradə Xəlilova*

rəfdaşlıq və əlaqələrin gücləndirilməsi istiqamətində müzakirələr aparılaraq, müqavilə imzalanıb.

Görüşün sonunda hədiyyələr təqdim olunub. Proqram qonaqlar üçün Bakı şəhərinin görməli yerlərinə, o cümlədən Heydər Əliyev Mərkəzinə tur və şam yeməyi ilə başa çatıb.

and relations between Badr University and Khazar University, and an agreement was signed.

At the end of the meeting, gifts were exchanged. The program concluded with a tour of Baku's landmarks, including the Heydar Aliyev Center, and a dinner for the guests.




*Ashraf Mohamed El-Shihy, Hanan Mounib "Dünya" məktəbində*

## ƏMƏKDAŞLAR ERASMUS+ 3E-TƏRƏFDAŞLIQ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ MİLAN POLİTEXNİK UNİVERSİTETİNDƏ

## STAFF AT POLIMI, ITALY IN THE FRAMEWORK OF ERASMUS+ 3E-PARTNERSHIP PROJECT

Oktyabrın 3-4-də Xəzər Universitetindən Fəxrəndə Əfəndiyeva (Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı), Fəridə Tatardar (Fizika və elektronika departamentinin müdiri) və Səlimə Əhmədovadan (İnkişaf Mərkəzinin Layihə meneceri) ibarət heyət İtaliyanın Milan şəhərindəki Milan Politexnik Universitetində keçirilən tədbirdə iştirak ediblər. Tədbir "Azərbaycan, Gürcüstan və Ukraynada Avropa enerji səmərəliliyi üzrə qarşılıqlı yardım tərəfdaşlığı - 3E-Tərəfdaşlıq" Erasmus+ CBHE layihəsi çərçivəsində təşkil olunmuşdu.

Tədbir inkişaf və texnoloji yeniliklər mövzusunda müzakirələrlə başlandı. Təqdimatlardan ən əhəmiyyətlisi Prof. F. Grassi`nin "Milan Politexnik universiteti tələbələri ətraf mühit texnologiyalarının və ağıllı infrastrukturların səfirləri kimi" mövzusunda çıxışı oldu.

Prof. M. Delfanti "Avropada bərpa olunan enerji mənbələrinin dəstəklənməsi üçün vasitələr" mövzusunda qiymətli məlumatlar verdi.

Digər sessiyalarda Prof. M. Iacchetti "Birbaşa külək enerji konversiyası sistemləri üçün generatorlar" və Prof. A. Berizzi "Təxminən 100% BEM əsaslı generasiyada enerji sistemi sabitliyi problemləri" mövzularında çıxış etdilər, bərpa olunan enerji mənbələrinin mövcud enerji sistemlərinə inteqrasiyasının çətinliklərini araşdırdılar.

Prof. C. Del Pero isə "Tikinti sektorunun dekarbonizasiyası - məhdudiyyətlər və imkanlar" mövzusunda təqdimatla çıxış edərək, tikinti sənayesində həm çətinliklər, həm də innovativ həllər barədə məlumat verdi.

İştirakçılar Leonardo Kampusundakı laboratoriyalarda enerji texnologiyalarındakı ən son yeniliklərlə tanış oldular.

Tədbir 3E-Tərəfdaşlıq layihəsi üçün əhəmiyyətli bir addım oldu, iştirak edən təşkilatlar arasında əməkdaşlığı və bilik mübadiləsini gücləndirdi.

On October 3-4, a delegation from Khazar University, consisting of Fakhranda Afandiyeva (Dean of School of Science and Engineering), Farida Tatardar (Head of the Physics and Electronics Department), and Salima Ahmadova (Project Manager at the Development Center), took part in an event of Politecnico Di Milano, Milan, Italy. This event was part of the Erasmus+ CBHE project, "European Energy Efficiency towards Mutually Reinforcing Partnership with Azerbaijan, Georgia, and Ukraine - 3E-Partnership."

The event commenced with a welcome address, setting the stage for discussions on sustainability and technological innovation. A key highlight was the presentation by Professor F. Grassi, who introduced PoliMI students as "Ambassadors of Green Technologies and Smart Infrastructures," fostering student engagement in sustainability efforts.

Professor M. Delfanti provided valuable insights on "Instruments for Renewable Energy Sources Support in Europe".

Additional sessions featured Professor M. Iacchetti, who focused on "Generators for Direct-Drive Wind Energy Conversion Systems," and Professor A. Berizzi, who addressed "Power System Stability Issues in a Quasi 100% RES Based Generation," exploring the challenges of integrating renewable energy sources into existing power systems.

Professor C. Del Pero concluded the academic presentations with a discussion on "The Decarbonisation of the Building Sector – Constraints and Opportunities," highlighting both challenges and innovative solutions in the construction industry.

Participants engaged in lab visits at the Leonardo Campus, gaining hands-on insights into the latest advancements in energy technologies.

The event represented a significant step forward for the 3E-Partnership project, enhancing collaboration and knowledge exchange among participating institutions.

## AKSARAY UNİVERSİTETİNİN MÜƏLLİMİ "XƏZƏR"DƏ

## AKSARAY UNIVERSITY INSTRUCTOR AT "KHAZAR"



*Telman Quliyev, Selim Karagöz*

Oktyabrın 7-10-da Türkiyənin Aksaray Universitetinin müəllimi Selim Karagöz ERASMUS+(KA171) mübadilə proqramı çərçivəsində Xəzər Universitetində olmuşdur.

İlkin görüşdə Xəzər Universitetindən Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva və koordinatoru İlqarə Abdullayeva, Tarix və arxeologiya departamentinin müəllimi Söhrab Mustafayev iştirak etmişlər.

Növbəti günlərdə Selim Karagöz Tarix və arxeologiya departamentinin müdiri Telman Quliyevin və müəllimləri Söhrab Mustafayev və Nurlan Nəsirovun dərslərində iştirak etmiş və özü də müxtəlif mövzularda bir neçə dərs keçmişdir.

Proqramın davamında Tarix və arxeologiya departamentinin müdiri Telman Quliyev və müəllimi Roza Arazova qonaqla görüşüblər. Görüşdə Beynəlxalq əlaqələr şöbəsinin koordinatorları İlqarə Abdullayeva və Əli Mirzəzadə iştirak etmişlər.

Selim Karagöz İlqarə Abdullayevanın müşayiəti ilə Atəşgah Məbədində olmuşdur.

From October 7-10, Selim Karagöz, a lecturer from Aksaray University in Türkiye, visited Khazar University within the framework of the ERASMUS+ (KA171) exchange program.

In the initial meeting, Fatima Valiyeva, Head of the International Relations Department, and Ilgara Abdullayeva, Coordinator, along with Sohrab Mustafayev, a lecturer from the Department of History and Archaeology, participated.

In the following days, Selim Karagöz attended classes by Telman Guliyev, Head of the Department of History and Archaeology, and lecturers Sohrab Mustafayev and Nurlan Nasirov, and also delivered several lectures on various topics.

As part of the program, Telman Guliyev, Head of the Department of History and Archaeology, and lecturer Roza Arazova met with the guest. Coordinators from the International Relations Department, Ilgara Abdullayeva and Ali Mirzazade, also attended the meeting.

Selim Karagöz visited the Ateshgah Temple accompanied by Ilgara Abdullayeva.

# DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ONLAYN GÖRÜŞ

# ONLINE MEETING WITHIN THE DIRNA PROJECT FRAMEWORK

Oktyabrın 14-də Xəzər Universitetinin koordinatoru olduğu DIRNA layihəsi çərçivəsində avropalı tərəfdaşlarla - İzmir Yüksək Texnologiya İnstitutu (İYTE) , L'Aquila Universiteti (UNİVAQ), Jyvaskyla Univeristeti (JYU) arasında onlayn görüş keçirildi. Görüş zamanı İzmir Yüksək Texnologiya İnstitutunun kitabxana direktoru Gültekin Gürdal cavabdeh olduqları 7-ci işçi paketinə uyğun "Keyfiyyətə nəzarət " hissəsinə aid icra olunmuş və olunacaq işlər barədə hesabat verdi.

Tərəfdaşlara bildirildi ki, mütəmadi olaraq görülmüş işlər barədə materialları ümumi qovluqda paylaşsınlar. Layihə çərçivəsində qarşıda duran məsələlər müzakirə olundu.

Görüşdə Xəzər Universitetinin əməkdaşları - Kitabxana İnformasiya Mərkəzinin (KİM) direktoru Tatyana Zaytseva, İnkişaf Mətkəzinin direktoru Raziyə İsayeva, KİM-in direktor müavini Aytac Misgərli və Komplektləşdirmə bölməsinin müdiri Cəmilə Quliyeva, İYTE müəllimi və məlumat meneceri Begüm Yavuz, Akademik arxiv meneceri Ayşen Binen, müəllim Gönül Kafalı Can, UNİVAQ tədqiqatçısı Francesco Tarquini, JYU Tədqiqat koordinatoru Kati Clements və tədqiqatçı Saana Mehtala iştirak etdilər.

On October 14, an online meeting was held between European partners - Izmir Institute of High Technology (IIHT), University of L'Aquila (UNIVAQ), University of Jyväskylä (JYU) - within the framework of the DIRNA project coordinated by Khazar University. During the meeting, Gültekin Gürdal, the library director of Izmir Institute of Technology, reported on the completed and upcoming work related to the "Quality Control" section, which is part of the 7th work package they are responsible for.

Partners were advised to regularly share materials about the work done in a common folder. Upcoming issues within the project framework were discussed.

The meeting was attended by Khazar University staff - Tatyana Zaytseva, Director of the Library Information Center (LIC), Raziya Isayeva, Director of the Development Center, Aytaj Misgarli, Deputy Director of LIC, and Jamila Guliyeva, Head of the Acquisition Department. Other participants included Begüm Yavuz, Lecturer and Data Manager at IIHT, Ayşen Binen, Academic Archive Manager, Gönül Kafalı Can, Lecturer, Francesco Tarquini, Researcher at UNIVAQ, Kati Clements, Research Coordinator at JYU, and Saana Mehtala, Researcher.

# MAFİ-NIN KOORDİNATORU ÖZBƏKİSTANDA KEÇİRİLMİŞ BEYNƏLXALQ SİMPOZİUMDA

# ICAF COORDINATOR AT INTERNATIONAL SYMPOSIUM IN UZBEKISTAN

Oktyabrın 22-23-də Özbəkistanın Nəvai şəhərində Nəvai İnnovasiyalar Universitetinin təşkilatçılığı ilə "Rəqəmsallaşma dövründə məktəbəqədər təlimin qlobal gələcəyi: təlim, tərbiyə problemləri və həll yolları" adlı Beynəlxalq elmi simpozium keçirilmişdir. Simpoziumda Azərbaycan, Almaniya, Türkiyə və Rusiyadan alim və mütəxəssislər iştirak etmişlər.

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin dosenti, universitetin Mədəni Antropologiya və Folklor İnstitutunun (MAFİ) koordinatoru Aynur Qəzənfərqızı da həmin toplantıda "Məktəbəqədər təlimdə kreativlik və şəxsiyyət olma xüsusiyyətlərinin yaradılmasında folklor janrlarının rolu" adlı məruzə ilə çıxış etmiş və sertifikat almışdır.

Qeyd edək ki, Nəvai İnnovasiyalar Universiteti Xəzər Universiteti ilə yaxından tanışdır. Belə ki, hər iki universitet qarşılıqlı memorandum imzalamışlar.

On October 22-23, an International Scientific Symposium titled "The Global Future of Preschool Education in the Digital Age: Learning, Education Problems and Solutions" was held in Navoi, Uzbekistan, organized by Navoi University of Innovations. Scientists and experts from Azerbaijan, Germany, Turkey, and Russia participated in the symposium.

Associate Professor Aynur Gazanfargizi from Khazar University's Department of Languages and Literature, who is also the coordinator of the university's Institute of Cultural Anthropology and Folklore (ICAF), presented a paper titled "The Role of Folklore Genres in Generating Creativity and Personality Traits in Preschool Education" and received a certificate.

It should be noted that Navoi University of Innovations is well acquainted with Khazar University, as both universities have signed a mutual memorandum.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜƏLLİMİ BEYNƏLXALQ SEMİNARDA

## ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT INSTRUCTOR AT INTERNATIONAL SEMINAR

İngilis dili və ədəbiyyatı departamentinin doktorantı və müəllimi Aynur Rzayeva Vişeqrad Qrupunda Polşanın sədrliyi ilə təşkil olunan "Gənclər Demokratiya üçün" V4 seminarında Xəzər Universitetini təmsil edib. Seminar oktyabrın 21-24-də Polşanın Varşava şəhərində keçirilib. Erasmus+ tərəfindən maliyyələşdirilən və SALTO (Dəstək, yüksək səviyyəli öyrənmə və təhsil imkanları) Şərqi Avropa və Qafqaz (SALTO Resurs Mərkəzi) tərəfindən Polşanın Təhsil Sisteminin İnkişafı Fondu (Milli agentlik) ilə birgə təşkil edilən proqram gənclərin iştirakını, demokratik fəallığını və beynəlxalq gənclər əməkdaşlığını inkişaf etdirməyi hədəfləyib.

Qeyd edək ki, tədbir Polşa, Çexiya, Slovakiya, Macarıstan və Şərq Tərəfdaşlığı ölkələrindən gənc liderləri bir araya gətirib. Tədbir proqramına Vişeqrad Qrupu və Şərq Tərəfdaşlığı regionundakı təsir gücünə məxsus şəxslərlə seminarlar, panel müzakirələri, şəbəkələşmə sessiyaları və mədəni tədbirlər daxil olmuşdur.

Aynur Rzayeva, a Ph.D. candidate and instructor in the Department of English Language and Literature, represented Khazar University in the V4 seminar "Youth for Democracy," organized in the framework of the Polish Presidency in the Visegrad Group. The seminar happened on 21-24 October in Warsaw, Poland. The program financed by Erasmus+ and organized by SALTO Eastern Europe and Caucasus (SALTO Resource Centre) with the Co-organizer FRSE - Foundation for the Development of the Education System, Poland (National Agency) aimed to advance youth participation, democratic engagement, and international youth cooperation.

Note that, the event brought together enthusiastic young leaders from Poland, Czechia, Slovakia, Hungary, and the Eastern Partnership countries. The event included workshops, panel discussions, networking sessions with opinion leaders from the Visegrad Group and Eastern Partnership region, and cultural activities.

## KİM ƏMƏKDAŞLARI "CLARIVATE" VƏ "SCOPUS" NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ

## LIC EMPLOYEES MEET WITH REPRESENTATIVES FROM "CLARIVATE" AND "SCOPUS"

Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzinin (KİM) direktor müavini Aytac Misgərli və İnformasiya xidmətləri bölməsinin müdiri Samirə Orucova oktyabrın 25-də Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana İnformasiya Mərkəzində "Clarivate" və "Scopus" şirkətlərinin nümayəndələri ilə keçirilən görüşdə iştirak ediblər.

Görüşdə kitabxanaların elmin inkişafındakı mühüm rolu müzakirə olunub. Müzakirələrdə kitabxanaların cari vəziyyəti, elmi və tədris resurslarına çıxış imkanları, elektron transformasiyaları və fakültələr, tədqiqatçılar və tələbələrlə iş barədə fikir mübadiləsi aparılıb.

Görüşdə iştirak edən "Clarivate" və "Scopus" şirkətlərinin nümayəndələri dünyanın aparıcı universitetlərinin kitabxanalarının fəaliyyəti barədə məlumatları və orada tətbiq olunan yanaşmaları görüş iştirakçıları ilə bölüşüblər.

Yekunda görüşdə müzakirə olunan problemləri və imkanları əhatə edəcək, kitabxanaların fəaliyyətini daha da təkmilləşdirəcək yol xəritəsinin hazırlanması hədəf olaraq müəyyən edilib.

On October 25, Aytaj Misgarli, Deputy Director of the Library Information Center (LIC) of Khazar University, and Samira Orujova, Head of the Information Services Department, participated in a meeting organized by the State Agency for Science and Higher Education at the Library Information Center of Azerbaijan State Pedagogical University with representatives from "Clarivate" and "Scopus" companies.

The meeting discussed the important role of libraries in the development of science. The discussions covered the current state of libraries, access to scientific and educational resources, electronic transformations, and cooperation with faculties, researchers, and students.

The representatives of "Clarivate" and "Scopus" companies shared information about the activities of libraries at the world's leading universities and the approaches implemented there with the meeting participants.

In conclusion, the preparation of a roadmap that will cover the problems and opportunities discussed at the meeting and further improve the activities of the libraries was set as a target.



# DÜNYANIN İLK UÇAN SAUNASI FİNLANDİYADA YARADILDI

Dünyanın ilk uçan saunası Finlandiyada yaradıldı. Finlandiya saunalara və aviasiyaya olan sevgisi ilə məşhurdur. 57 yaşlı əkiz qardaşlar Ari və Yari Lehtinen bu iki həvəsi birləşdirərək, unikal bir ixtira - dünyanın ilk uçan saunasını yaratmağa qərar veriblər.

Oxu.Az bu barədə kp.ru-ya istinadən xəbər verir.

Məlumata görə, 170 kq çəkisi olan innovativ sauna hava şarı vasitəsilə 2 300 metr yüksəkliyə qalxıb. Uçuş təxminən bir saat davam edib və göyərtədə iki ekipaj üzvü və iki fin saunası həvəskarı olub. "Saunadan daha yaxşı əyləncə yoxdur", - deyə Ari Lehtinen bildirib.

Qardaşlar gələcəkdə onların uçan saunasının populyar turist attraksionuna çevriləcəyini istisna etmirlər.

Qeyd etmək lazımdır ki, bu Lehtinen əkizlərinin ilk qeyri-adi ixtirası deyil. Onlar daha əvvəl sualtı sauna, kətan saunası və öküz dərisi ilə örtülmüş mobil sauna yaradıblar.

Statistikaya görə, 5.6 milyon əhalisi olan Finlandiyada 3 milyondan çox sauna var, yəni təxminən hər iki sakindən birinə bir sauna düşür.

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi
- Musiqi müəllimliyi